Günəş Şərqdən doğur!
№ 114 (5395), 2021-ci il
Qiymәti 40 qәpik
# ŞƏRQ
Müstəqil İctimai-siyasi qəzet
www.sherg.az 1 iyul 2021-ci il (cümə axşamı)



## “Panika yaratmağa dəyməz"

Ramin Nəriman: “Delta” ştammının Azərbaycanda aşkar olunması gözlənilən bir haldır”

(Səh.9)

# Türkiyə və Rusiya barışığa çağırır



## Antalyada razılıq əldə olundu, Qarabağ müzakirələrində bütün səylər birləşdiriləcək

(səh.2)



## Yeni qaz tarifləri müəyyənləşib

Tarif Şurasının növbəti iclası keçirilib

Koronavirus pandemiyasının yaratdığı iqtisadi məhdudlaşmalar, habelə dünya ölkələrində ayrı-ayrı istehlak məhsullarının istehsal həcmlərinin aşağı düşməsi dünya iqtisadiyyatına və beynəlxalq bazarlara öz təsirini göstərir.

(səh.4)

## Qurban bayramı günlərində ictimai nəqliyyat işləyəcək



Nazirlər Kabinetinin "2021-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 3 dekabr 2020-ci il tarixli qərarına əsasən, Qurban bayramı bu il iyulun 20-si və 21-də qeyd olunacaq.

(səh.5)

# Dostumuzu, düşmənimizi yaxşı tanıdıq



Qarabağı təkcə Ermənistan deyil, havadarları da talan edib

(səh.8)

## Aİ Azərbaycandan səyahətlərə icazə verib

(səh.2)

## Ermənistan sülh danışıqlardan yayınır

Tofiq Zülfüqarov: “Azərbaycan qarşı tərəfi məcbur etməlidir”

(səh.3)

## Paşinyan yeni dönəmdə diktaturaya meyillənəcək

Baş nazirin etibarını qazanmamış heç bir şəxsə nazirlik həvalə edilməyəcək

(səh.5)

## Açıq havada maska taxılmalıdır

Həkim valideynləri diqqətli olmağa çağırıb

(səh.12)

# Türkiyə və Rusiya barışığa çağırır

## Antalyada razılıq əldə olundu, Qarabağ müzakirələrində bütün səylər birləşdiriləcək



Türkiyənin Antalya şəhərində səfərdə olan Rusiyanın xarici işlər naziri Sergey Lavrov həmkarı Mövlud Çavuşoğlu ilə birlikdə keçirdiyi mətbuat konfransında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Şuşa ziyarətinə münasibət bildirib. O, Ərdoğanın Şuşa səfərini təbii qarşıladıqlarını qeyd edib:

"Prezident Ərdoğanın Şuşa səfərinə Azərbaycan-Türkiyə arasında ikili münasibətlər çərçivəsində baxmaq lazımdır. Biz Rusiya olaraq bölgədə sülhün təsis edilməsi, ermənilərin və azərbaycanlıların yan-yana yaşaya bilməsi üçün, həmçinin bütün qonşular arasında etimad mühitinin yaranması üçün dəstəyimizi verəcəyik".

Lavrov həmçinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin regionun inkişafı üçün "3+3" əməkdaşlıq platforması ilə bağlı təklifinin Rusiya tərəfində müsbət reaksiya doğurduğunu deyib.

"Biz bu gün Mövlud Çavuşoğlu ilə razılaşdıq ki, hər kəs öz imkanından istifadə edib Azərbaycan və Ermənistanın barışığına, onlar arasında münasibətlərin normallaşmasına, azərbaycanlılar və ermənilərin bu torpaqda yanaşı, mehriban qonşular kimi yaşamaları üçün şərait yaratmağa kömək etsin. Onda əminik ki, bütün məsələlər, o cümlədən siyasi xarakterli məsələləri daha asan həll etmək mümkün olacaq. Bir daha qeyd edirəm ki, bizim əməkdaşlığımızın əlavə istiqaməti bu regionda nəqliyyat kommunikasiya, iqtisadi əlaqələrin bərpa olunmasıdır. Türkiyə Prezidenti Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin regionun inkişafı üçün "3+3" əməkdaşlıq platforması ilə bağlı təklifi bizdə müsbət reaksiya doğurub. Bu gün biz bu barədə danışdıq. Düşünürəm ki, burada bizim ilk vaxtlar üçün yaxşı planlarımız var. Təkrar edirəm ki, biz Azərbaycan-Ermənistan münaqişəsi ilə bağlı nəticəli əməkdaşlıqdan məmnunuq".

Sergey Lavrov deyib ki, Rusiya Qarabağ məsələsində Türkiyə tərəfi ilə səylərini sıx şəkildə koordinasiya edir. Bakı və İrəvan da bu məsələdə məsafə qət etmək üçün dialoqu davam etdirir.

Regionda bütün nəqliyyat əlaqələrinin bərpasının əhəmiyyətinə toxunan S.Lavrov Ağdamda yerləşən Rusiya-Türkiyə Birgə Monitorinq Mərkəzinin fəaliyyətini təqdir etdiklərini vurğulayıb:

"Əminik ki, ümumilikdə vəziyyətin kompleks stabilləşməsi Cənubi Qafqazda nəqliyyat kommunikasiyasının açılmasına, bu regionda yerləşən ölkələrin, o cümlədən Türkiyə və Rusiyanın iştirakı ilə çoxplanlı iqtisadi əməkdaşlığın irəliləməsi səylərinə xidmət edəcək".

**"Rusiyalı həmkarım Sergey Lavrovla ikitərəfli münasibətlərimiz barəsində ətraflı fikir mübadiləsi apardıq. İkitərəfli münasibətlərimizdə elə bir ciddi problem yoxdur"**. Bunu isə Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu rusiyalı həmkarı Sergey Lavrovla Antalya şəhərində görüşdən sonra keçirilmiş mətbuat konfransında deyib.

O qeyd edib ki, Qarabağdakı vəziyyət bu gün regionla bağlı müzakirə mövzularından biri olub.

Çavuşoğlunun sözlərinə görə, rusiyalı həmkarı ilə Suriya, Liviya və Əfqanıstandakı vəziyyəti də müzakirə ediblər.

"Məqsədimiz bütün bu ölkələrdə sabitliyin, dincliyin və sülhün daimi olmasıdır", - deyə türk nazir əlavə edib.

**İsmayıl**

## Aİ Azərbaycandan səyahətlərə icazə verib



**Avropa İttifaqı (Aİ) Azərbaycan da daxil olmaqla 11 ölkəni qurumun təsdiqlənmiş səyahət siyahısına əlavə edib.**

Qərar dünən Aİ səfirlərinin iclasında verilib.

Ermənistana mina xəritələrinin təhvil verilməsi ilə bağlı çağırış edib

Yeni qərarla Kanada, Ermənistan, Azərbaycan, Bosniya və Herseqovina, Bruney, İordaniya, Kosovo, Moldova, Monteneqro, Qətər və Səudiyyə Ərəbistanı siyahıya əlavə edilib.

Xatırladaq ki, ötən il Aİ koronavirus pandemiyasına görə təşkilat xaricindəki ölkələrdən qeyri-vacib səyahətləri dayandırmışdı.

Təhlükəsiz səyahət siyahısı Aİ-yə üzv ölkələr üçün məcburi deyil, bu siyahı məhdudiyyətin hansı ölkələrə aid edildiyini göstərir.

## Vətən müharibəsində 8 hərbçimiz itkin düşmüş sayılır



**Azərbaycan Müdafiə Nazirliyi Vətən müharibəsində itkin düşmüş şəxslərin iyunun 30-dək olan siyahısını açıqlayıb.**

Siyahıda itkin düşmüş hesab olunan 8 nəfərin foto şəkilləri, adları, soyadları, hərbi rütbəsi və doğum tarixi haqqında məlumat qeyd olunub.

Bildirilir ki, itkin düşmüş hesab olunan hərbi qulluqçuların tapılması və identifikasiyası üzrə işlər davam etdirilir.

# Azərbaycanın Ermənistana verdiyi vaxt limiti dolub

## Moskva da, İrəvan da mesajları alıb, sərhədlərin müəyyənləşməsi sürətlə həyata keçirilməlidir

Azərbaycan Ermənistandakı seçkiləri nəzərə aldığından sərhədlərin müəyyənləşdirilməsi prosesi bir qədər təxirə salınmışdı. Bu həm də Azərbaycanın Ermənistana vaxt və şans tanıması idi. Söhbət ondan gedir ki, Azərbaycan Ermənistandakı parlament seçkiləri öncəsi həssas siyasi vəziyyətə görə sərhədlərin müəyyənləşməsi və Zəngəzur dəhlizinin reallaşması məsələsində prinsipial gözləmə mövqeyini seçmişdi.

İndi isə Azərbaycanın Ermənistan üçün qoyduğu müddət başa çatır. Çünki Ermənistanda parlament seçkiləri də keçirildi, Nikol Paşinyan qalib oldu, indi İrəvan Bakının diktələri ilə hərəkət etməyə məcburdur.

**Siyasi şərhçi, jurnalist Aqşin Kərimov vurğulayıb ki, görünür, vəziyyət o qədər təcili və təxirəsalınmaz xarakter alıb ki, hələ yeni hökumət formalaşmamış İrəvan dərhal təmaslara keçib.** Analitik qeyd edib ki, Prezident İlham Əliyev iyunun 26-da Silahlı Qüvvələr Günü münasibətilə hərbçilər önündə çıxış edərkən Bakının qətiyyətli tezisini bir daha təkrarladı. Bu, seçki sonrası Ermənistan hökumətinə bir daha aydın mesaj idi: "Ölkə rəhbəri İlham Əliyev dedi ki, Ermənistan qonşuları ilə normal münasibət qurmaq istəyirsə, "Dağlıq Qarabağ" sözündən imtina etməlidir. Dövlət başçısının bəyanatı İrəvanla yanaşı, Rusiyaya, Fransaya da ismarıcdır. Axı İrəvanla yanaşı Moskva və Paris də teztez eyni, arxaik frazaya müraciət edir. Prezident dəfələrlə münaqişənin bitdiyini deyir, Moskvadan gələn bəzi ikibaşlı bəyanatlar isə situasiyanı mürəkkəbləşdirmək cəhdlərinə xidmət edir. Misal üçün, Rusiya lideri Vladimir Putin düşünür ki, münaqişə dayandırılıb, fikir verirsinizsə, bitib yox, məhz dayandırılıb. Moskvanın bu həmləsi başadüşüləndir. Rusiya həmişə regionda hərbi dayaqlarını bərkitmək üçün müxtəlif vasitələrə əl atıb, diplomatik tonun ahəngi də buna hesablanıb. Bununla belə, Azərbaycanın diplomatiya mexanizmini elə qurub ki, aşırı dominantlıq cəhdləri neytrallaşır, Bakının Ankara ilə gücləndirilmiş "iş rejiminə" keçməsi də burada mühüm rol oynayır. İrəvanın təmaslarına gəlincə, ilk addım Rusiyadan yardım diləmməyə yönəlib, lakin burada Ermənistanın blef etdiyini də görmək lazımdır".



**Ekspertin sözlərinə görə, Ermənistan Azərbaycanla sərhədlərin müəyyənləşdirdiyi ərazilərə Rusiya qoşunlarının yerləşdirilməsi imkanlarını nəzərdən keçirir:** "Onsuz da bu zamana qədər Ermənistanın sərhədlərini Rusiya qoruyurdu. İndi Azərbaycanla sərhədlərin delimitasiyası zamanı və ya bundan sonra Rusiya hərbçilərinin ora gəlişində təəccüblü bir şey yoxdur. Ermənistan hakimiyyəti özünü elə göstərir ki, guya, ölkəsinin sərhədlərini qoruyur, halbuki bu, Rusiyadan asılılıqları artırır. Bundan əvvəl Ermənistan Rusiya sülhməramlılarının əraziyə gəlişi üçün Moskva üçün xoşagələn fikir səsləndirmişdi. Əgər sülhməramlılar sərhədə gələcəksə, bu zaman belə qənaətə gəlmək olar ki, sərhədlərin müəyyənləşməsi zamanı münaqişələr olmayacaq. Bu isə Azərbaycanın xeyrinə sürətli keçidi təmin edən amildir. Sərhədlərin müəyyənləşməsini Rusiya da dəstəkləyir. Təsadüfi deyil ki, Rusiya Xarici işlər naziri Sergey Lavrov açıqlamalarının birində ölkəsinin təşəbbüsü dəstəklədiyini demişdi. Zəngəzur dəhlizinin reallaşması isə sərhədlərin müəyyənləşməsindən keçir, Moskva özü də yeni iqtisadi açılımlarda maraqlıdır. Hələ sərhədlər müəyyənləşməyə yeni başlayanda Gümrüdəki 102-ci bazanın bir qisim şəxsi heyəti Sünikə (Zənzəgur) yerləşdirilmişdi və Azərbaycan bundan sonra prosesi sürətlə həyata keçirə bildi".

**A.Kərimov vurğulayıb ki, dövlət başçısı İlham Əliyev sərhədlərin müəyyənləşməsinin sürətlə həyata keçirilməsi məsələsini Moskvaya və İrəvana çatdırıb, ona görə də Ermənistan tərəfi əl-ayağa düşüb:** "Artıq Ermənistanda Qarabağdan danışan yoxdur, diqqət öz ərazilərinin hayına qalmağa yönəlib. Ölkə rəhbəri İlham Əliyevin də "Dağlıq Qarabağ"la bağlı xatırlatması bir daha Ermənistana verilən ultimatumdur. Rusiya hərbçilərinin sərhədə gəlməsi sərhədlərin müəyyənləşməsinin qarşısını almayacaq. Rusiya hərbçilərinin sərhədə gəlişi Ermənistana qulaqburmasıdır. Hədəf ona hesablanıb ki, İrəvan sərhədlərin delimitasiya və demarkasiyasında problemlər yaratmasın. Sərhəd mübahisələrinin tez bir zamanda həlli əhəmiyyətli dərəcədə vacibdir, çünki sülh sazişinə hazırlıq prosesləri gedir. Sülh sazişi isə Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı tanınmasında vacib komponentdir".

**İsmayıl Qocayev**



Ermənistanda keçirilən parlament seçkiləri başa çatdıqdan sonra 10 noyabr 2020-ci il və 11 yanvar 2021-ci il tarixlərində imzalanmış üçtərəfli razılaşmaların icrası aktuallaşdı. Bu məsələ Azərbaycan və Rusiya prezidentləri arasındakı sonuncu telefon danışığı zamanı da müzakirə olunub.

# Ermənistan sülh danışıqlardan yayınır

## Tofiq Zülfüqarov: "Azərbaycan qarşı tərəfi məcbur etməlidir"

Aydındır ki, razılaşmaların həyata keçirilməsi birbaşa Azərbaycan və Ermənistanın ərazi bütövlüyünün qarşılıqlı şəkildə tanınmasından asılıdır. Rəsmi Bakı buna hazırdır, amma İrəvan hələ qərarsızdır.

Doğrudur, ilk işarələrdən sezmək olur ki, Nikol Paşinyan Azərbaycanın ərazi bütövlüyünü tanıyan müqaviləyə imza atacaq. İrəvanda dərc edilən "Hraparak" hətta təxmini tarixləri də (sentyabr ayı) qeyd edib.

Maraqlıdır, həqiqətən də Ermənistan sülh müqaviləsini imzalayacaqmı? **Sabiq Xarici işlər naziri Tofiq Zülfüqarov "Şərq"ə bildirib ki, sülh sazişinin imzalanması Azərbaycan üçün də vacibdir:** "Çünki bu saziş ilə Ermənistan rəsmi olaraq ərazi iddialarından imtina etməlidir. Ancaq görürük ki, ermənilər bu məsələdən yayınırlar və müxtəlif bəhanələrlə hələ də üçtərəfli bəyanatın bəndlərini həyata keçirməkdən boyun qaçırırlar. Həmin bəhanələrdən biri ondan ibarət idi ki, guya, Ermənistanda gərgin siyasi vəziyyət var. Ona görə də bu vəziyyətdə hansısa addımları atmaq siyasi baxımdan təhlükəlidir. Seçkilərdən sonra isə belə bəhanələr öz qüvvəsini itirir. Bu baxımdan gözlənilən məsələləri qısa müddətdə həll etmək olar".

**T.Zülfüqarov qeyd edib ki, sülh sazişindən başqa vacib olan digər mövzular da var:** "Məsələn, Zəngəzur dəhlizinin açılması, işğal altında olan ərazilərin qaytarılması, Qazaxın 7 və Naxçıvanın Kərki kəndinin taleyi. Əsas məsələ odur ki, Ermənistan Azərbaycanın daxili işlərinə müdaxiləni müxtəlif yollarla davam etdirir. Arabir məlumatlar gəlir ki, hansısa yüksək səviyyəli məmurlar Ermənistandan gəlib sülhməramlıların nəzarətində olan bölgələri ziyarət ediblər. Bu da bir növ daxili işlərimizə müdaxilə deməkdir. Rəsmən bu kimi hallara son qoyulması üçün Azərbaycan tərəfi Ermənistanı məcbur etməlidir. Məsələ vasitəçilər sayəsində Ermənistanın qarşısına israrla qoyulmalı və icrası təmin edilməlidir".

**Yeganə Bayramova**



# İzahat tələb olunmalıdır

## Rusiyanın maliyyəsi ilə salınan qəsəbələrə erməni qaçqın ailələri köçürülür

**"Rusiya sülhməramlıları Xocalı, Əsgəran və Şuşa ətrafında yeni qəsəbələr salırlar".**

**Bu sözləri "Şərq"ə açıqlamasında politoloq Məhəmməd Əsədullazadə deyib. Siyasi şərhçi bildirib ki, birbaşa Rusiyanın maliyyə hesabına salınan qəsəbələrdə Ermənistandan qaçqın ailələr köçürülür:** "Onları qəsəbə ətrafında yeni iş yerləri ilə təmin edirlər. Maaşlar və əlavə ödənişləri də Rusiya tərəfi həyata keçirir. İşi görən Rusiya Fövqəladə Hallar Nazirliyidir. Bu nazirliyin Xankəndidə, Xocalıda nümayəndəlikləri var. Rusiya FHN hər bir ailəyə əlavə ödənişlər vəd edir".

**Analitik hesab edir ki, Azərbaycan tərəfi Rusiyadan bununla bağlı izahat tələb etməlidir:** "Yeni tikilən şəhərciklərdə mini sex və zavodlar tikilir, iş yerləri yaradılır. Məhsulların birbaşa Ermənistan və Rusiya bazarlarına çıxışı da təmin edilir. Moskva hər vəchlə çalışır ki, ermənilərin Qarabağdan köçməsinin qarşısını alsın".

**İsmayıl**

# Tarif Şurası aydınlıq gətirdi

## Əhali qrupu üzrə elektrik enerjisi ilə bağlı tariflər dəyişməyib



**Əhali kateqoriyası üzrə elektrik enerjisinin mövcud tariflərinə hər hansı dəyişiklik edilməyib.**

Bu barədə Azərbaycan Respublikasının Tarif (qiymət) Şurasının elektrik enerjisi üzrə qərarına dair izahedici şərhində deyilir.

Tarif (qiymət) Şurası 2021-ci il 30 iyun tarixli 9 nömrəli qərarı ilə elektrik enerjisi üçün müəyyənləşdirilən topdansatış tarifinə aydınlıq gətirərək bildirir ki, bu tariflər enerji təchizatı birbaşa 35 və 110 kilovoltluq xətlərlə həyata keçirilən, gün ərzində yük tələbatı stabil olan, istehsal məqsədləri üçün orta aylıq enerji istehlakı 5 milyon kilovat/saatdan az olmayan məlumatların emalı, qeydə alınması və ötürülməsi üzrə fəaliyyət göstərən məlumat mərkəzlərinə şamil olunur.

Bu tarifin əhaliyə və qərarda qeyd edilən fəaliyyətdən fərqli fəaliyyətlə məşğul olan qeyri-əhali abonentlərinə aidiyyəti yoxdur. Əhali kateqoriyası üzrə mövcud tariflərə hər hansı dəyişiklik edilməyib.

# Azərbaycan regionun lider ölkəsi kimi fəallığını qoruyur

## Avropa İttifaqı ilə münasibətlər bundan sonra daha ciddi məzmun alacaq

Avropa İttifaqı (Aİ) Azərbaycanla yeni hərtərəfli saziş imzalamağa hazırdır. Bu barədə Aİ-nin Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas deyib. Onun sözlərinə görə, bu sazişlə bağlı tərəflər arasında danışıqlar 2017-ci ildə başlayıb:

"Aİ ilə Azərbaycan arasında hərtərəfli sazişin imzalanması ticarət dövriyyəsinin artmasına xidmət edəcək. Sənədin mətni artıq hazırdır. Azərbaycan Ümumdünya Ticarət Təşkilatının üzvü olmadığı üçün ticarətlə bağlı bəzi məsələlər açıq qalır. Mən sənədin imzalanmasının konkret müddətini deyə bilmərəm, amma bu saziş bizim münasibətlərimizi və iqtisadiyyatı daha da yaxşılaşdırmağa imkan verəcək". Yankauskas qeyd edib ki, Aİ Azərbaycanın ÜTT-yə üzv olmasını, eləcə də iqtisadi şaxələndirməni dəstəkləyir. Onun sözlərinə görə, bütün bunlardan başqa, Aİ ölkələrinin vətəndaşları üçün vizaların ləğv olunması Azərbaycana turist axınının artmasına xidmət edəcək. Azərbaycanla Avropa İttifaqı arasında mövcud olan tərəfdaşlıq münasibətləri bütövlükdə Cənubi Qafqazın geosiyasi gələcəyi üçün çox əhəmiyyətlidir. Keçən əsrin 90-cı illərindən başlayan bu münasibətlərin dinamikası zaman-zaman fərqli olub. Aİ-nin qonşuluq siyasətinə etdiyi düzəlişlər fonunda 2015-ci ildən bu yana müşahidə edilən sürətli geosiyasi dəyişikliklər Brüssel-Bakı xəttində də maraqlı yeniliklərə səbəb olmaqdadır. Ekspertlər xüsusən 44 günlük İkinci Qarabağ müharibəsindən sonra Aİ ilə Azərbaycan arasında münasibətlərin hansı xətt üzrə inkişaf edəcəyi ilə ciddi maraqlanırlar. Müxtəlif təhlillər aparılır, proqnozlar verilir. Faktiki olaraq, Aİ hazırda böyük bir məkanda geosiyasi balans yaratmaq funksiyasını yerinə yetirir. Eyni zamanda, Avropa İttifaqı Cənubi Qafqaz dövlətləri ilə münasibətlərin qurulmasında müəyyən təcrübəyə malikdir. Azərbaycan isə son illər ərzində sürətli iqtisadi inkişaf yolu keçib, müstəqil siyasətini daha da təkmilləşdirib. İkinci Qarabağ müharibəsində əldə etdiyi parlaq qələbə sayəsində regionda geosiyasi balansı yeniləyib. Nəticədə, bir tərəfdən, dünyanın böyük geosiyasi gücləri regiondakı siyasətlərinə düzəlişlər etməli olublar. Digər yandan Azərbaycanı bu regionun əsas geosiyasi faktoru kimi nəzərə almağa başlayıblar. Bu məqamlar Aİ-Azərbaycan münasibətlərinin məzmununa ciddi təsir etməkdədir. 2020-ci ilin payızından Aİ-Azərbaycan münasibətlərində bir dönüş yarandı. Rəsmi Bakının Aİ ilə əlaqələri səmimi olaraq inkişaf etdirmək niyyəti haqqında rusiyalı ekspertlər də yazırlar. Məsələn, Vladimir Avatkov Azərbaycanın xarici siyasətinin prioritetlərinə həsr edilmiş təhlili məqaləsində vurğulayır ki, Bakı Aİ ilə əlaqələri fraqmentar deyil, kurs olaraq davamlı surətdə inkişaf etdirməkdədir. Bu baxımdan Azərbaycanla Avropa İttifaqı arasında keçirilən görüşlərdə rəsmi Bakının konkret layihələr üzrə təkliflər verməsi maraqlıdır. Bu onu göstərir ki, Azərbaycan rəhbərliyi üçün Aİ ilə əlaqələr xarici siyasətin prioritetləri sırasına daxildir. Azərbaycan yenə də Avropa İttifaqı ilə münasibətlərin real zəmində səmərəli olması üçün üzərinə düşən bütün vəzifələri yüksək səviyyədə yerinə yetirir. Bununla rəsmi Bakı həm Avropa İttifaqı ilə əlaqələri gücləndirir, həm də bir daha regionun aparıcı dövləti, lider ölkəsi kimi fəallığını ortaya qoyur. Əminliklə demək olar ki, Aİ-Azərbaycan münasibətləri yalnız ziddiyyətlərlə deyil, həm də perspektivlə xarakterizə olunur. Azərbaycan Prezidentinin qətiyyəti və ədalətli siyasəti ilə tərəflər arasında əlaqələrin güclənəcəyinə yeni ümidlər yaranmaqdadır.



**Vəhdət Partiyasının sədr müavini Vasif Əfəndiyev "Şərq"ə açıqlamasında vurğulayıb ki, 164 ölkənin təmsil olunduğu Umumdünya Ticarət Təşkilatına üzv qəbul olunmaq üçün daha 24 ölkə danışıqları davam etdirir. Analitik vurğulayıb ki, Azərbaycanın ÜTT ilə münasibətləri tənzimləyən təklifləri və saziş layihəsini katibliyə təqdim edib:** "Təşkilata üzvlük 1997-ci ildən gündəmdə olsa da, artıq proses yekunlaşmaq üzrədir. ÜTT üzvlərinin üçdə iki hissəsinin zəif inkişaf etmiş və geridə qalmış ölkələrdən ibarət olması bizim üçün daha geniş imkanlar yaradır. Bu ölkələrə maneəsiz investisiya yatırmaq imkanı əldə etmiş oluruq. Quruma üzvlük həm də Azərbaycanın Avropa İttifaqı ilə hərtərəfli sazişin imzalanmasını tezləşdirəcək. Hər iki istiqamətdə aparılan danışıqlar və əməli tədbirlər payız aylarında konkret nəticələr verə bilər. Avropa İttifaqı ilə hərtərəfli sazişin imzalanması sadələşdirilmiş vizanın tətbiq edilməsi ilə nəticələnəcək. Bu da ilk növbədə turizm sahəsinin artan dinamika üzrə inkişafına təsir edəcək. Azərbaycan turizim üçün çox əlverişli ölkə olması ilə yanaşı, bu sahəyə daha müasir standartlara uyğun xidmət sahələri qurmaq imkanları var və zəngin Azərbaycanın bu ittifaqa üzvlüyü Avropa ölkələrinin marağındadır".

**İsmayıl Qocayev**

# Yeni qaz tarifləri müəyyənləşib

## Tarif Şurasının növbəti iclası keçirilib

Koronavirus pandemiyasının yaratdığı iqtisadi məhdudlaşmalar, habelə dünya ölkələrində ayrı-ayrı istehlak məhsullarının istehsal həcmlərinin aşağı düşməsi dünya iqtisadiyyatına və beynəlxalq bazarlara öz təsirini göstərir. Son bir ildə dünya bazarlarında bütün əsas ərzaq məhsulları üzrə qiymətlər davamlı şəkildə artmaqdadır. Dünya enerji bazarlarında müşahidə olunan qiymət artımları bu prosesi daha da sürətləndirir. Xüsusilə təbii qazın dünya bazar qiymətlərinin artması qeydə alınır. Qiymətlərin artıma doğru istiqamətlənməsi nəticəsində bir çox ölkələrdə təbii qazdan istifadə edən sahələr üçün tariflər dəyişmiş, o cümlədən istehlakçı kateqoriyaları üçün kommunal xərclər artmışdı.

Bu səbəbdən 30 iyun 2021-ci il tarixində Tarif Şurasının növbəti iclası keçirilib. İclasda Dövlət Neft Şirkətinin (SOCAR) müraciətinə baxılaraq müvafiq qərar qəbul edilib. Dövlət Neft Şirkəti Şuraya müraciət edərək ölkədə təbii qazın topdansatış və pərakəndə satış qiymətlərinin artırılmasını təklif edib. Müraciətdə təbii qazın tarifinə yenidən baxılmasına səbəb kimi istehlakın artması, qaz təchizatının əhatə dairəsinin genişləndirilməsi və abonentlərinin sayının 18 faizə yaxın artması nəticəsində xərclərin yüksəlməsi göstərilir. Əhali üzrə tarifin aşağı olması və son tarif tənzimlənməsinin qüvvəyə mindiyi 2017-ci illə müqayisədə ölkəmizdə bir əhali abonenti üzrə istehlakın həcminin təxminən 1,3 min kub metrdən 1,6 min kub metrə yüksəlməsi qaz təchizatı fəaliyyəti üzrə zərərin daha da artması ilə nəticələnir ki, həmin məbləğ dövlət büdcəsi hesabına qarşılanır. Xidmət səviyyəsinin yüksəldilməsi, dövlət büdcəsindən asılılığın aradan qaldırılması və investisiya qoyuluşlarının təmin edilməsi, eləcə də istehlak edilən təbii qazın istehsal və təchizat xərclərinin tam ödənilməsi üçün tariflərin artırılmasına zərurət yaradıb. Şuranın iclasında aparılan müzakirələrdə təklif olunan müxtəlif tarif artımı variantları nəzərdən keçirilib. Şura üzvlərinin yekdil qərarı ilə dövlətin həyata keçirdiyi sosial yönümlü siyasət əsas götürülərək əhalinin aztəminatlı hissəsinin mənafelərinə uyğun olan modelə üstünlük verilib. Belə ki, tarif tənzimləməsində optimal yanaşma tətbiq olunmaqla əhali abonentlərinin təxminən 51 faizini əhatə edən istehlakçılar üzrə təbii qazın illik istehlak həcminin 1200 m3-dək olan hissəsi üçün tarif dəyişdirilməyib. İstehlak edilən qazın 1200 - 2500 m3 olan hissəsi üçün 1 kub metr üçün 20 qəpik, ondan çox olan hissəsi üçün isə 25 qəpik müəyyənləşdirilib. Qeyd edilib ki, əhali abonentləri üçün müəyyən edilən tarif sistemi böyük sahəyə malik yaşayış evlərini daha qənaətcil istilik sistemlərindən istifadəyə sövq edəcək. Qəbul edilmiş tarif artımı modeli bir sıra sahələr üçün güzəştli tarif sisteminin saxlanılmasını nəzərdə tutur. İqtisadi dirçəlişin təmin edilməsi məqsədilə sənaye və kənd təsərrüfatı sahələrinə verilən təbii qazın tarifi bu mərhələdə dəyişdirilməyərək mövcud 20 qəpik səviyyəsində saxlanılıb.



Məlumat üçün bildirək ki, 2020-ci ildə 1 kub metr təbii qazın tarifi əhali abonenti üzrə Ankarada orta hesabla 32 qəpik, Kiyevdə 32,6 qəpik təşkil edib. Hazırda Ankarada 32-40 qəpik, Kiyevdə isə 54 qəpik səviyyəsindədir. Yeni müəyyənləşdirilmiş tariflər bəzi ölkələrin tarifləri ilə müqayisədə yenə aşağıdır. Belə ki, 1 kub metr təbii qazın tarifi əhali üzrə Gürcüstanda 19,7-29,5 qəpik, Belarusda 9,2-34,2 qəpik, Rusiyada 11,9-16,5 qəpik arasında dəyişir. 1 kub metr təbii qazın tarifi qeyri-əhali abonenti üzrə isə hazırda Türkiyədə orta hesabla 35-49 qəpik, Ukraynada 22-26 qəpik, Belarusda 21,9-78,2 qəpik, Rusiyada 15,3-18,2 qəpik arasında dəyişir. Onu da qeyd edək ki, tarif dəyişikliyi nəticəsində qaz hasilatı və təchizatı ilə məşğul olan təsərrüfat subyektlərinin dövlət büdcəsindən asılılığı tədricən azalacaq, büdcədə sərbəstləşən vəsait sosialyönümlü tədbirlərə yönəldiləcək. Tarif tənzimlənməsindən sui-istifadəyə yol verilməməsi üçün nəzarət tədbirləri həyata keçiriləcək.

Nəzərə alaq ki, ötən dövr ərzində ölkədə təbii qazın istehlakı artıb, həyata keçirilən infrastruktur layihələri nəticəsində qaz təchizatının əhatə dairəsi genişlənib. Abonentlərin sayı 18 faizə yaxın yüksəlib. Nəticədə dövlətin xərcləri xeyli dərəcədə artıb və 1000 kub metr təbii qazın hasilat və istehlakçıya çatdırılma xərci 2020-ci ildə 160 manat təşkil edib. Təbii qaz üzrə son tarif tənzimlənməsi 2016-cı ilin noyabr ayının 28-də aparılıb və ötən müddət ərzində ölkədə və dünyada müşahidə edilən tendensiyalara baxmayaraq, Azərbaycanda təbii qazın qiymətində dəyişiklik edilməyib. Təbii qazın hasilatı və əhaliyə çatdırılmasına xərclənən vəsait təbii qazın satışından əldə olunan vəsaitdən xeyli dərəcədə aşağı olub və qaz təchizatı fəaliyyəti zərərlə nəticələnib. COVİD-19 pandemiyası dövründə əhalinin gəlirlərinin azalması nəzərə alınaraq, əhali üzrə istehlak həcmi artırılıb və bir əhali abonenti üzrə 1,3 min kub metrdən 1,6 min kub metrə yüksəldilib. Bu, zərərin daha da artması ilə nəticələnib və həmin məbləğ dövlət büdcəsi hesabına qarşılanıb. Ona görə də əhaliyə göstərilən xidmət səviyyəsinin yüksəldilməsi, dövlət büdcəsindən asılılığın, subsidiyaların aradan qaldırılması, büdcədə sərbəstləşən vəsaitin sosialyönümlü tədbirlərə yönəldilməsi, yeni investisiya qoyuluşlarının təmin edilməsi məqsədi ilə qiymət artımına gedilib. Son tarif tənzimlənməsinin qüvvəyə mindiyi 2017-ci ildə Azərbaycanda orta aylıq əmək haqqı 528,5 manat təşkil edib. Ötən müddət ərzində orta aylıq əmək haqqı 35 faiz artaraq 2021-ci ilin aprel ayı üzrə 713,2 manat olub. Tarif dəyişikliyi ölkə əhalisinin təxminən 51 faizinin orta aylıq xərcinə təsir etməyəcək, əhalinin alıcılıq qabiliyyətinə təsir göstərməyəcək. Belə ki, istehlak səbətində bir nəfər üçün aylıq qaz istehlakı həcmi 21 kub metr müəyyənləşdirilib. Orta statistik ailə tərkibinin 4 nəfər olduğunu nəzərə alsaq, bu da il ərzində təxminən 1000 kub metr qaz istehlakı deməkdir. Bu isə, aşağı tarifli qaz istehlakı limiti çərçivəsindədir. Bununla yanaşı, məhəllə qazanxanalarına verilən təbii qazın tarifi 35 faiz endirilib. Bu, ilk növbədə əhalinin bu xidmətlərə əlçatanlığını artıracaq. Digər tərəfdən isə yaşayış binalarında mənzillərin fərdi isitmə sistemlərindən daha qənaətli mərkəzləşdirilmiş məhəllə qazanxanalarına keçidi stimullaşdıracaq.

**İqtisadçı-ekspert Eldəniz Əmirov "Şərq"ə açıqlamasında vurğulayıb ki, abunəçilərin təxminən 51 faizini əhatə edən istehlakçılar üzrə təbii qazın illik istehlak həcminin 1200 m3-dək olan hissəsi üçün tarif dəyişdirilməyib və hazırkı səviyyədə saxlanılıb.** Ekspert vurğulayıb ki, istehlak edilən qazın 1200-2500 m3 olan hissəsi üçün 1 kub metr üçün 20 qəpik, 2500 m3-dən çox olan hissəsi üçün isə 25 qəpik müəyyənləşdirilib: "Etiraf edək ki, hazırda 2500 kub metrdən çox istifadə edən insan çox və kasıb deyil. Həm də bu qənaətə sövq edər. İkinci xöşbəxtlik odur ki, sənaye və kənd təsərrüfatı sahələrinə verilən təbii qazın tarifi bu mərhələdə dəyişdirilməyərək mövcud 20 qəpik səviyyəsində saxlanılıb. Bilirik ki, istilik elektrik stansiyalarında elektrik enerjisinin alınması zamanı daha çox təbii qazdan istifadə edilir. Üçüncü müsbət məqam odur ki, bu stansiyalara verilən qazın qiymətində cəmi bir qəpik artım olub, 12 qəpikdən 13 qəpiyə qaldırılıb. Çox qalxsaydı, növbəti ay elektrik qiymətlərinin müzakirəsi və qaldırılması qaçılmaz olacaqdı. Digər məqam odur ki, "Azəristiliktəchizat" ASC və yaşayış binalarının məhəllə qazanxanaları üzrə təbii qaz tarifi 20 qəpikdən 13 qəpiyə endirilib. Əslində nəzərə alsaq ki, hazırda mövsüm geridə qalıb, onsuz da qaz istifadəsi yox dərəcəsindədir, bu elə də təsir etməyəcək. Növbəti ilin yanvarında bu qiymət dəyişməzsə, bunu müsbət qiymətləndirmək olar. Yalnız ticarət, xidmət və s. sahələrində tariflər 5 qəpik artırılıb ki, burada da qaz istifadəsi çox deyil. Bütün bunları nəzərə alaraq tam səmimi deyirəm ki, bu qərara sevinmək lazımdır. Tarif Şurasının əksər qərarlarının iqtisadiyyat üçün daha ağır olduğunu nəzərə alsaq, xüsusən, suyun qiymətində 100 faizli artıma baxsaq, bu dəfə təhlükənin sovuşduğunu deyə bilərik. Ən azı ona görə ki, heç olmasa ilin sonuna qədər qaz qiymətləri ilə bağlı əhali məyus olmayacaq".

**İsmayıl Qocayev**

# Revanşist qüvvələr Azərbaycan tərəfinə verilməlidir

## "Bu, Ermənistan üçün ən rahat və təhlükəsiz bir addım olardı"

Ali Baş Komandan, Prezident İlham Əliyevin 26 iyunda hərbçilərimizlə görüşü zamanı bir sıra mühüm məsələlərə diqqət çəkib: "Ermənistanın inkişafı üçün də yeganə yol var - öz qonşuları ilə normal münasibətlər qurmaq və ərazi iddialarından əl çəkmək, Dağlıq Qarabağ sözünü ümumiyyətlə işlətməmək.

Çünki Dağlıq Qarabağ adlı ərazi vahidi yoxdur, Dağlıq Qarabağ münaqişəsi anlayışı yoxdur. Mən bunu dəfələrlə demişəm və bir daha demək istəyirəm ki, Dağlıq Qarabağ münaqişəsi həll olunub, Ermənistan da bunu belə qəbul etməlidir və bizimlə sərhədlərin müəyyən edilməsi istiqamətində iş aparmalıdır. Delimitasiya üzrə işçi qrup yaradılmalıdır. Sülh müqaviləsinə hazırlıq işləri getməlidir. Biz bunu bəyan edirik. Biz qalib ölkəyik. Ermənistanı məhv etmişik, siz yaxşı bilirsiniz hansı çətin şərait əsasında. Onlar 30 il istehkamlar, 6 müdafiə xətti qurmuşdular. O bölgənin təbii relyefi onlar üçün çox əlverişli idi. Biz qəhrəman övladlarımızın canı-qanı bahasına, qəhrəmanlığı bahasına bu torpaqları azad etmişik. Ölümə gedirdi bizim gənclərimiz, əsgərlərimiz, zabitlərimiz. Hər kəs bunu deyirdi - öldü var, döndü yoxdur. Biz belə çətin şəraitdə qələbə qazanmışıq. Ona görə Ermənistan tam dərk etməlidir ki, biz istənilən hərbi vəzifəni icra edə bilərik və heç kim bizi dayandıra bilməz. Onlar bilməlidirlər ki, "Dəmir yumruq" yerindədir".

**Görüş barədə "Şərq"ə danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, Ali Baş Komandanımızın hərbçilərimizi qəbul edərkən gələcəkdə ordumuzun say tərkibi və silahlanmasına dair verdiyi mesajlar çox önəmli idi**: "Əslində bu mesajlar Ermənistan tərəfinin dərin narahatlığına səbəb olacaq. Adətən müharibə başa çatdıqdan sonra silahlı qüvvələrdə şəxsi heyətin ixtisarı, say tərkibinin azalması ilə qarşılaşırıq. Bunu beynəlxalq təcrübə də deməyə əsas verir. Biz isə tam əksinə, türk



modelinə, yəni NATO modelinə keçirik, həm də silahlı qüvvələrimizin sayt tərkibini artırırıq. Bu da gələcəkdə Ermənistanın Azərbaycana qarşı revanşist niyyətlərə düşməsi zamanı onlara çətin başa gələcək. Hazırda Ermənistanın büdcəsi 600 milyon dollardır. Bunun isə Azərbaycanın gələcək büdcəsindən 7 dəfə az olması Ermənistanın atacağı addımların real olmadığını göstərir. Dolayısı ilə Ermənistan həmin büdcə ilə əsgərlərini yalnız geyindirib keçindirə, maaşlarını verə bilər. Odur ki, onların səsləndirdiyi revanşist fikirlərin heç bir əsası yoxdur. Bunu həyata keçirmək üçün adekvat hərbi büdcə ilə ortaya çıxmalı idilər".

*Ə.Verdiyev vurğulayıb ki, digər vacib nüans Azərbaycanın tərəfdaşları ilə həm birgə təlimlər keçirilməsi, həm müdafiə sahəsində əməkdaşlığı Qarabağın və Azərbaycan Silahlı Qüvvələrinin gələcəyinə yönəlik mesajlar idi:*

"Ehtimal etmək olar ki, yaxın gələcəkdə həm Şuşa Bəyannaməsindən, həm də bu tələblərdən irəli gələn və Ermənistanı narahat edən addımlar atacağımız qaçılmazdır. Rəsmi İrəvanın qısa müddətdə Azərbaycanla sərhədlərin delimitasiya və demarkasiyası, daha sonra da sülh sazişi imzalaması onlar üçün bəlkə də yeganə məntiqli addım olar. Artıq seçkilər də bitib, ancaq zaman-zaman təxribatlara rast gəlirik. Hesab edirəm ki, Paşinyan hökuməti qurduqdan sonra revanşist qüvvələrə rəvac yaradan insanlar da Azərbaycan tərəfinə qaytarılmalıdır. Bu, Ermənistan üçün ən rahat və təhlükəsiz bir addım olardı".

**Yeganə Bayramova**

# Paşinyan yeni dönəmdə diktaturaya meyilləncək

## Baş nazirin etibarını qazanmamış heç bir şəxsə nazirlik həvalə edilməyəcək



Ermənistanda seçkidən qalib çıxmış Nikol Paşinyan yeni hökumətin tərkibinin formalaşdırılması ilə məşğuldur. Onun kadr seçimində baş nazirə sədaqət faktoruna ciddi önəm verdiyi xüsusi olaraq vurğulanır. Bəzi yerli politoloqlar Paşinyanın yeni dönəmdə diktaturaya meyilləncəyini iddia edirlər. Digərləri isə Paşinyanın "sərt mövqeyinin" yeni hökumətdə baş nazirin avtoritetinin yüksəldilməsinə və daxili nizam-intizamın möhkəmləndirilməsinə ehtiyacın olması ilə izah edirlər. Hesab olunur ki, yaxın gələcəkdə Ermənistanın yeni hökumətinin atmağa hazırlaşdığı bir sıra önəmli addımlar Paşinyanı öz ətrafını möhkəmləndirməyə məcbur edir.



"Koçaryan bir ildən sonra Ermənistanda baş verə biləcək dövlət çevrilişinin anonsunu vermək istəyir"

**Ermənistanda "kadr qırğını" siyasəti tətbiq ediləcək**

Paşinyanın yeni hökuməti formalaşdırmasının uzun çəkəcəyi, etimad göstərdiyi siyasi kadrların sayının kifayət qədər olmadığı bildirilir. Erməni nəşrlərinin yazdığına görə, Paşinyanın etibarını qazanmamış heç bir şəxsə nazirlik həvalə edilməyəcək. Məsələn, Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan deyib ki, ölkədə "kadr qırğını" həyata keçirəcəyik: "Biz kadr qırğını sözünü vermişik və mütləq olacaq. Ümumiyyətlə, dövlət sistemi güclü olmalı və birmənalı olaraq qalib gəlmiş qüvvəyə xidmət etməlidir. Sistemi islah edəcəyik, sistem çoxsaylı islahatlara tab gətirməlidir". Qriqoryanın sözlərinə görə, Robert Koçaryanın bloku Levon Ter-Petrosyanın aqibətini yaşayacaq.

**Ermənistanın yeni xarici işlər naziri kim olacaq?**

Səlahiyyətlilər arasında hazırda Ermənistan Xarici işlər naziri vəzifəsinə namizəd axtarışları da var. "Joğovurd" nəşri yazıb ki, mayın 27-dən Ermənistan Xarici İşlər Nazirliyi nazir və nazir müavinlərinə malik deyil: "Hazırda hakimiyyətin axtarışları Ermənistanın polis rəisinin müavini Mher Qriqoryanın üzərində dayanıb. Məsələ burasındadır ki, Qriqoryan rus dairələri tərəfindən qəbul edilib, müəyyən təcrübəyə malikdir və bu səbəblə də ən mümkün namizəd hesab olunur". Nəşr bənzər vəzifə təklifini alıb-almadığını şəxsən Mher Qriqoryandan aydınlaşdırmağa çalışıb. Qriqoryan qeyd edib ki, özünün təyin edilməsi haqqında hər hansı məlumata sahib deyil: "Hazırda hökumətin formalaşdırılması ilə bağlı məsələləri şərh etmirəm".

**Ermənistanda anarxiya hökm sürür və ölkə sanki inersiya ilə idarə olunur**

"Joğovurd" iddia edib ki, iyunun 20-də Ermənistanda baş tutmuş növbədənkənar parlament seçkilərinin artıq keçmişdə qalmasına baxmayaraq, Ermənistanda anarxiya hökm sürür və ölkə sanki inersiya ilə idarə olunur: "Hazırda Ermənistan hökumətində hər kəs müvəqqəti əvəzedicidir. Daxilində istefalar başlayan qurumlar var və bu vəziyyətdə Ermənistan hökumətinin lazım olan şəkildə işlədiyini söyləmək çətindir. Üstəlik, ölkədəki bu anarxiya atmosferi artıq uzun müddətdir davam edir. Ümumiyyətlə, 2020-ci il Ermənistan üçün çətin olub, sentyabrın 27-dən sonra başlamış müharibə isə ölkəni inersiyaya qoyub.

**"İl yarımdan sonra yeni seçki tələbi yaranacaq"**

Ermənistanın keçmiş prezidenti, "Ermənistan" blokunun rəhbəri Robert Koçaryan isə yenə öz ampluasındadır və bütün vasitələrlə Paşinyanı nüfuzdan salmağa çalışır. Koçaryan yaxın dönəmdə yeni parlament seçkisinin keçiriləcəyinin qaçılmaz olduğunu deyib. Onun sözlərinə görə, növbədənkənar seçkilər siyasi böhrandan çıxmaq üçün keçirilir. Ölkədə böhran müharibədəki məğlubiyyət, insan itkiləri nəticəsində yarandı, ancaq seçkilər bunu həll edə bilmədi: "Çünki böhran bu komanda hakimiyyətdə olduğu zaman yarandı. Seçkilər qarşıya qoyulan hədəfi həll etmədi və böhranın səbəbi aradan qaldırılmadı. Bu da o deməkdir ki, niyə məğlub olduq, niyə beş min nəfər öldü, Şuşa və Hadrut necə itirildi suallarına cavab almayacağıq və 5 milyardlıq razılaşmaya dair şübhələr heç yerə getməyəcək". Onun sözlərinə görə, bu qədər sualla siyasi konsolidasiyadan danışmaq mümkün deyil: "Mənim proqnozlarıma görə, yeni seçkilərin keçirilməsi tələbi il yarımdan sonra yaranacaq".

**"Koçaryan Ermənistanda baş verəcək dövlət çevrilişinin anonsunu verir"**

**Ermənistanda seçkidən sonra yaşanan prosesləri "Şərq"ə təhlil edən siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev bildirib ki, Koçaryan Ermənistanda hakimiyyətdə olan ən hiyləgər, ikiüzlü, satqın, adioz fiqurdur. Professor vurğulayıb ki, Koçaryan "oxumuş əclaf"dır:** "Azərbaycanda doğulub böyüsə də, türklərə qarşı nifrətinin həddi-hüdudu yoxdur. Hər zaman erməni xislətinə uyğun davranıb. Hazırkı dönəmdə Koçaryanın səsləndirdiyi bütün ifadələr Rusiyanın təlimatlarıdır. Niyə məhz il yarımdan sonra seçkilərə tələb yaranacağını deyir? Moskva hesablayır ki, ən azından il yarım ərzində Azərbaycanın Qarabağa tam yerləşməsi mümkün olmayacaq və ictimaiyyət arasında müəyyən narazılıqlar baş qaldıracaq. Bu müddət ərzində ruslar ermənilər arasında təbliğat aparacaqlar. Ancaq Kreml və dəstək verdikləri Koçaryan bu məsələdə yanılır. Çox güman ki, özü də absurd danışdığının fərqindədir. Görünür, Koçaryan bir ildən sonra Ermənistanda baş verə biləcək dövlət çevrilişinin anonsunu vermək istəyir. "Qarabağ klanı"nın hakimiyyəti ələ keçirməsinə hüquqi don geyindirmək üçün yenidən parlament seçkisinin keçirilməsindən bəhs edir. Şübhə yox ki, bu, Rusiyanın planıdır".

**"Ermənistanı indiki duruma salan Koçaryan-Sarkisyan tandemidir"**

*Politoloq vurğulayıb ki, "5 milyard, Şuşa və Hadrut" məsələsini yenidən gündəmə gətirən Koçaryan hələ də "Qarabağ klanı"nı təmizə çıxartmağa çalışır.* Halbuki, Koçaryan-Sarkisyan cütlüyünün hakimiyyəti dövründə həyata keçirilən cinayətlər, mənimsəmələr, quldurluqlar erməni xalqına yaxşı məlumdur: "44 günlük savaşda ağır məğlubiyyətə düçar olmaq və yaranmış dərin siyasi-iqtisadi böhran heç də Paşinyanın günahı deyil. Ermənistanı indiki duruma salan əsas siyasi qruplaşma Koçaryan-Sarkisyan tandemidir. Ona görə də hər fürsəti dəyərləndirərək Paşinyanı gözdən salmağa səy göstərirlər. Lakin indiki halda Paşinyanın fərqli addım atması qeyri-mümkündür. Beynəlxalq erməni diasporasının üzvləri, ABŞ-dakı məşhur Sasonyan da etiraf edir ki, Ermənistan müharibəni uduzduğuna görə qalib tərəfin bütün şərtlərinə əməl etməlidir. Çünki savaşı qazanmış Azərbaycan diktə edən tərəfdir".

**"Koçaryanın açıqlamaları daxili auditoriya üçündür"**

**C.Nuriyevə görə, Koçaryanın açıqlamaları daxili auditoriyaya hesablanmış "proqnozlardır" və özünü doğrultma ehtimalları sıfırdır:** "Qarabağ klanı"nın xam xəyallarına inanan üç-beş erməni qalıb. Zamanla onlar da həqiqəti anlayacaqlar. Görəcəklər ki, bir müddət sonra Şuşa, Hadrut ermənilərə qayıtmayacaq, əksinə, indi yaşadıqları Xankəndi, Xocavənd, Xocalı birmənalı şəkildə Azərbaycanın nəzarətinə keçəcək. 4-5 il ərzində Qarabağda 5 min erməninin qalacağı sual altındadır. Torpaqlarımızda ermənilərin qalıb-qalmamasına isə rəsmi Bakı qərar verəcək. Həm də il yarıma qədər Rusiyanın özü hansı vəziyyətdə olacaq, onu da Allah bilir. Şimal qonşumuzun çox ciddi problemləri var. Rusiyada hakimiyyət-xalq qarşıdurması güclənir".

**İsmayıl Qocayev**

---

### "Tərtər hadisələri" obyektiv araşdırılmalıdır

"Çox günahsız insan işgəncəyə məruz qalıb"

**Bu günlərdə Azərbaycan Silahlı Qüvvələrinin 103-cü ildönümünü fərəhlə qeyd etdik. Hər birimiz sevindik, ordumuza uğurlar arzuladıq.** Amma çoxlarının yadına həm də "Tərtər hadisələri" düşdü. Üstündən dörd il keçməsinə rəğmən, hadisə çözülməyib. Cinayətkarlar ifşa olunmayıb.

**Qarabağ Azadlıq Təşkilatının sədri Akif Nağı bu barədə "Şərq"ə açıqlamasında "Tərtər hadisələri"nə belə münasibət bildirib:** "Əlbəttə, çox mürəkkəb prosesdir. Böyük ehtimalla xəyanət olub. Amma o xəyanətin fonunda çox günahsız insan işgəncəyə məruz qalıb. Bu mənada hüquq-mühafizə orqanları obyektiv araşdırma aparmalıdır. Təbii, ictimai reaksiya olmalı, məsələ gündəmdə saxlanılmalıdır. Fəqət, təzyiqlə, aksiyalarla müvafiq qurumların işinə, qərarına mane olmaq düzgün deyil".

**Kənan**

---

### Qurban bayramı günlərində ictimai nəqliyyat işləyəcək



**Nazirlər Kabinetinin "2021-ci il üçün Novruz, Ramazan və Qurban bayramları günlərinin müəyyən edilməsi haqqında" 3 dekabr 2020-ci il tarixli qərarına əsasən, Qurban bayramı bu il iyulun 20-si və 21-də qeyd olunacaq.**

Nazirlər Kabinetinin "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" qərarına əsasən, 20 və 21 iyul ictimai nəqliyyat, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyətinin dayandırıldığı günlər sırasına daxil deyil.

Odur ki, Qurban bayramı günlərində ictimai nəqliyyatda, həmçinin Bakı Metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılmayacaq.

**Aynurə**

---

### Yoluxanların sayı sağalanları üstələyib

**Azərbaycanda koronavirus (COVID-19) infeksiyasına 86 yeni yoluxma faktı qeydə alınıb, 26 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, 1 nəfər ölüb.**

Azərbaycanda indiyədək ümumilikdə 336 047 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 330 219 nəfər müalicə olunaraq sağalıb, 4 974 nəfər vəfat edib, aktiv xəstə sayı 854 nəfərdir. Ölkədə son sutka ərzində 8871, hazırkı dövrədək isə 3 749 303 test aparılıb.

# "Böhranın inkişafında nə Azərbaycan maraqlıdır, nə də Ermənistan"

## Putin vətəndaşların suallarını cavablandırarkən bir sıra maraqlı məqamlara toxunub



Rusiya Prezidenti Vladimir Putin "Birbaşa xətt" verilişində Rusiya vətəndaşlarının suallarını cavablandırıb. V.Putin heç kimin - nə Ermənistanın, nə də Azərbaycanın Qarabağda böhranın inkişafında maraqlı olduğunu bildirib: "Rusiya ciddi böhranın nizamlanmasında müəyyən rol oynayıb. Heç kəs bu böhranın inkişaf etməsində maraqlı deyil. Nə Azərbaycan, nə də Ermənistan, nə də ki, Dağlıq Qarabağın sakinləri... Məsələnin digər tərəfi budur ki, əgər hamımız dinc və mehriban şəkildə yaşasaq, insanların həyatını yaxşılaşdırmaq üçün hər cür şərait yaradacağıq. Üstəlik, yalnız təhlükəsizlik sahəsində deyil, həm də mövcud şəraitdə. Sözsüz ki, Qarabağda yaşayan insanların normal yaşayışı, iqtisadi və sosial inkişafına yüksək səviyyədə ehtiyacı var.

Hər zaman silahlı münaqişənin başlanacağı həyəcanı ilə yaşamaq mümkün deyil. Biz bunu gözəl başa düşürük".

V.Putin deyib ki, bunu Ermənistan və Azərbaycanın rəhbərləri də başa düşür: "Bəli, problemlər həqiqətən çox yığılıb. Normal infrastrukturun qurulması problemi mövcuddur. Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin müəyyən olunması məsələsi var, harada ki, heç vaxt dövlət sərhədi olmayıb. Bu, ancaq iki müttəfiq respublika arasında inzibati sərhəd olub. Biz indi bu işin həyata keçirilməsi prosesindəyik. Rusiya, Azərbaycan və Ermənistandan ibarət xüsusi üçtərəfli qrup yaratmışıq. Regionda normal münasibətlərin bərpa olunması üçün hər şeyi edirik. Bu işdən faydalananlar sözsüz ki, Dağlıq Qarabağın sakinləri olmalıdır. İstərdim, düşünüm ki, onilliklər ərzində yığılıb qalan bütün çətinliklərə baxmayaraq, belə də olacaq".

**Rusiya Prezidenti Cenevrə görüşü barədə də sualları cavablandırıb. O bildirib ki, ABŞ prezidentindən çox şey asılıdır:** "ABŞ-dan olan alimlər və analitiklər öz siyasi rəhbərliyinə və sinfinə məsləhətlər verirlər. Birqütblü dünyanın vaxtı keçib, dünya dəyişir. Sanksiyalara baxmayaraq Rusiya inkişaf edir, onun yüksək müdafiə qabiliyyəti var. Bəzi mövqelərə görə isə bizim göstəricilərimiz ABŞ-ı üstələyir. Asiya ölkələri də inkişaf edir. Tərəfdaşlar bütün bunları anlayırlar, ona görə də Cenevrədəki görüş lazım idi. Digər tərəfdən, onlar öz mövqelərini qorumaq istəyirlər, buna görə də sanksiyalar və təxribatlar olur".

*Prezident ümid edib ki, ABŞ da daxil olmaqla, münasibətlər normal məcraya qədəm qoyacaq. O, diqqətə çatdırıb ki, Rusiya qanunlarının tələblərini yerinə yetirməyən bir sıra xarici sosial şəbəkələrlə bağlı problem mövcuddur:* "Rusiya hakimiyyəti qərb sosial şəbəkələrini bloklamağı planlaşdırmır. Bizim bu cür planlarımız yoxdur. Heç kimi bloklamağa hazırlaşmırıq. Əksinə, onlarla işləmək niyyətindəyik".

*Putin həmçinin qeyd edib ki, lokdaunun olmaması üçün Rusiya regionlarında məcburi vaksinasiya tətbiq edir:* "İnfeksiyanın yayılmamasının qarşısını yalnız vaksinasiya hesabına almaq olar. ÜST-nin tövsiyələrinə əsasən, adi hallarda yenidən vaksinasiya 12 aydan sonra, pandemiya şəraitində isə 6 ay sonra məsləhət görülür. Mən "Sputnik V" ilə peyvənd olundum. Ordumuz da "Sputnik V" vurdurur. Axı mən həm də Ali Baş Komandanam".

*Qeyd edək ki, Rusiya prezidenti canlı yayımda sualları cavablandırdığı zaman verilişin rəqəmsal sistemlərinə DDoS hücumlar həyata keçirilib.*

**Aynurə Pənahqızı**

# Kreml hələ də sözünü tutmur

## "Erməni silahlı dəstələri Qarabağ bölgəsini tərk etməyiblər"

Rusiyanın Xarici işlər naziri Sergey Lavrov BMT-nin Qaçqınlar üzrə Ali Komissarı Filippo Grandi ilə görüşdə qaçqınların Qarabağa qaytarılmasından danışıb. Təbii olaraq, Sergey Lavrov erməni qaçqınlarının bölgəyə geri dönüşü barədə söhbət aparıb. Əslində Lavrov beynəlxalq təşkilatların nümayəndələri ilə görüşdə erməni qaçqınların qayıdışını ən vacib məqam kimi gündəmə gətirir. Maraqlıdır ki, heç Ermənistan hakimiyyəti Rusiya qədər qaçqınların Qarabağa qayıtması istiqamətində fəal deyil.

Ermənistan hakimiyyəti məcburi şəkildə erməniləri geri qaytarmağa çalışmır, çünki etirazdan çəkinir. İrəvan əksinə, Ermənistanda Qarabağ qaçqınları üçün minimum şərait yaratmaq üçün nələrsə edir. Rusiya hakimiyyətini isə ermənilərin Qarabağa qayıdıb hansı şəraitdə yaşayacağı maraqlandırmır. Kreml üçün önəmli olan Qarabağda daha çox erməninin yaşamasını təmin etməkdir ki, Rusiya hərbçilərinin bölgədə varlığının aktuallığı olsun. Elə buna görə müharibədən sonra Rusiyadakı mənbələr saxta məlumatlar yayaraq Qarabağda guya 50-55 min yaşadığını bildirirdilər. Halbuki, Qarabağ erməni separatçılarının lideri Araik Arutyunyan özü etiraf etdi ki, bölgədə 35 min erməni yaşayır. Bu rəqəmin ilk mənbədən açıqlanması Moskvanın yalanını ortaya qoydu. Mövcud reallıqda Qarabağdakı ermənilərin sayı azalmaqda davam edəcək. Bu isə Rusiyanın maraqlarına ziddir. Bu halda 5 ildən sonra Rusiya hərbçilərinin Qarabağı tərk etməsi aktuallaşacaq.

Ekspertlərin fikrincə, Lavrovun Qrandi ilə bu məsələni müzakirə etməsində Moskvanın iki marağı var. Birincisi, Kreml Qərbə Dağlıq Qarabağ münaqişəsinin onun vasitəçiliyi ilə həll edildiyinin və artıq humanitar məsələlərin gündəmdə olduğunun mesajını verir. Digər tərəfdən Bakıya üçtərəfli razılaşmaların bütün bəndlərinin icrası ilə bağlı praktiki addımlar atıldığını göstərir. Lakin müzakirələrin rəsmi Bakının istəkləri və maraqları kontekstində getdiyi istisna edilmir. Vurğulanır ki, qaçqınların qayıdışı məsələsinin gündəmdə olması "münaqişənin artıq bitdiyi" tezisinə uyğundur. Ancaq hesab edilir ki, sülhməramlıların nəzarətindəki bölgəyə qayıdış üçün bir neçə məsələ həll edilməlidir. İlk növbədə erməni qoşunları bölgədən çıxarılmalı, qanunsuz separatçı rejim ləğv edilməli, bu bölgələrdə Azərbaycanın idarəçiliyi və ermənilərlə azərbaycanlıların birgəyaşayışı təmin olunmalıdır. Ermənilər yalnız Azərbaycan vətəndaşlığı altında yaşaya bilərlər. Əsas risk rus sülhməramlılarının da ermənilərlə birgə bölgədə nəzarət trayektoriyasının genişlənməsidir.



*"Rusiya daha 5 il bölgədə qalmaq üçün əllərindən gələni edəcək. Buna imkan yaratmamalıyıq"*

**Tanınmış bloger, "Milli.az" xəbər portalının baş redaktoru Elçin Alıoğlu sosial şəbəkədə yazıb ki, azərbaycanlı məcburi köçkünlərin hazırda rusiyalı sülhməramlıların müvəqqəti nəzarətində olan Xankəndi, Xocalı, Ağdərə, Xocavənd, Əsgəran və s. yaşayış məntəqələrinə, ev-eşiklərinə, yurd yerlərinə qayıdışı prosesinə hazırlıq gedir.** Jurnalistin sözlərinə görə, azərbaycanlı məcburi köçkünlərin dogma yerlərinə qayıdışı ilə bağlı BMT-nin Qaçqınlarla İş üzrə Ali Komissarlığı ilə zəruri prosedurlar çərçivəsində müzakirələr aparılır: "Müzakirələr uğurludur. Sadəcə, bunu deyə bilərəm hələlik. Vaxtilə Bakıda, Gəncədə, Sumqayıtda və s. məkanlarda yaşamış ermənilərin qayıdışı isə müzakirə mövzusu deyil".

**Politoloq Əhəd Məmmədli "Şərq" açıqlamasında deyib ki, Rusiya XİN rəhbəri ilə BMT-nin xüsusi nümayəndəsi arasında gedən müzakirələrin müsbət tərəfi azərbaycanlıların Xankəndi və ətraf rayonlara qayıtması məsələsidir.** Lakin siyasi şərhçi prosesin Rusiyanın vasitəçiliyi və nəzarəti altında baş tutacağına şübhə ilə yanaşır: "10 noyabr Bəyannaməsinin 4-cü bəndi hələ də icra olunmayıb. Erməni silahlı dəstələri Qarabağ bölgəsini tərk etməyiblər. Halbuki, bu, Rusiyanın üzərinə götürdüyü əsas öhdəliklərdən idi. Moskva hər zaman olduğu kimi yenə vədinə sadiq çıxmadı, sözünü tutmadı. Belə məqamda Rusiyanın bütün hallara Azərbaycanın əleyhinə addımlar atacağını gözləyirəm. Əgər rəsmi Bakı məsələyə Türkiyə və Pakistanı cəlb edə bilsə, Kremlə qarşı siyasi təzyiqləri artırsa, beynəlxalq təşkilatları prosesə qoşsa, Moskva ermənilərı birmənalı müdafiə etməkdən və açıq-aşkar tərəf tutmaqdan çəkinəcək. Məcbur olacaq ki, Qarabağa qayıdış məsələsində Azərbaycan tərəfinin istək və maraqlarını nəzərə alsın. Fikrimcə, Qarabağa geri dönüş prosesində daha sərt mövqe ortaya qoymalıyıq. Əks halda Kreml mümkün qədər prosesi uzadacaq, Xankəndi və ətrafını ermənilərlə doldurmağa çalışacaqlar. Rusiya daha 5 il bölgədə qalmaq üçün əllərindən gələni edəcək. Buna imkan yaratmamalıyıq".

**İsmayıl Qocayev**



# Media haqqında qanunun olması çox önəmlidir

*Qulu Məhərrəmli: "Jurnalistlər öz azadlıqlarının sərhədlərini, cəmiyyət qarşısında rollarını bilməlidirlər"*

İyunun 29-da Azərbaycan Dövlət İnformasiya Agentliyində (AZƏRTAC) "Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin müzakirəsi keçirilib. Müzakirələrdə Medianın İnkişafı Agentliyinin rəhbərliyi, AZƏRTAC-ın İdarə Heyətinin üzvləri və struktur rəhbərləri iştirak ediblər. Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov "Media haqqında" Qanun layihəsinin müzakirəsinə yaratdığı şəraitə görə AZƏRTAC-ın rəhbərliyinə minnətdarlığını ifadə edib.

Yeni qanun layihəsi haqqında məlumat verən icraçı direktor Ə. İsmayılov bununla bağlı müzakirələrin aparılmasının əhəmiyyətindən söz açıb. O, Azərbaycanın ilk informasiya agentliyi olan AZƏRTAC-ın təcrübəli jurnalistlərinin fikirlərinin ümumi işin xeyrinə ola biləcəyini vurğulayaraq, onları işgüzar fikir mübadiləsinə çağırıb.

Sonra Medianın İnkişafı Agentliyinin Hüquq departamentinin direktoru Rəqsanə Kərimova qanun layihəsinin təqdimatını edib.

Bildirilib ki, layihənin müddəaları Azərbaycan Respublikasının ərazisində təsis olunmuş media subyektlərinə, redaksiyalara, onların məhsullarına, ölkə hüdudlarından kənarda olan və fəaliyyəti respublikamızın ərazisinə və auditoriyasına istiqamətlənmiş bütün media subyektlərinə, habelə xaricdə yaradılan media məhsullarının yalnız Azərbaycan ərazisində yayılan hissəsinə və jurnalistlərə şamil olunur.

Departament direktoru tədbir iştirakçılarını media subyektləri (audiovizual, çap və onlayn media subyektləri, informasiya agentlikləri), səlahiyyətli orqanlar, mediada yayımlanan informasiyalara dair tələblər, media subyektinin informasiyasından istifadə, media reyestri, jurnalistlərin akkreditasiyası və qanun layihəsinin digər müddəaları barədə ətraflı məlumatlandırıb.

**Qanun barədə fikirlərini "Şərq"lə bölüşən BDU-nun professoru, tanınmış teletənqidçi Qulu Məhərrəmli bildirib ki, media qanunvericiliyi ümumi media fəaliyyətinin mühüm aspektidir:** "Bu qanunda medianın statusu, iş prinsipləri, məqsəd və vəzifələri öz əksini tapmalıdır. Ölkəmizdə media qanunvericiliyi prosesi 1992-ci ildən başlayır. Lakin köhnə qanunlarda o qədər ciddi dəyişikliklər aparılıb ki, həmin qanunlar tanınmaz hala düşüb.

Bu baxımdan media qanununu yeniləmək, onu günün tələblərinə uyğunlaşdırmaq, müasirləşdirmək, sürətlənən texnoloji şəraitdə medianın rolunu və fəaliyyət prinsiplərinin hüquqi əsaslarını vermək lazımdır. Burada diqqəti cəlb edən əsas məqam odur ki, qanun müasir olmalıdır.

Yəni bir tərəfdən cəmiyyətin informasiyaya artan tələbatı, digər tərəfdən medianın onu necə və hansı yollarla ödəmək üçün göstərdiyi fəaliyyət vacibdir. Digər ciddi məsələ çoxşaxəli jurnalist fəaliyyətinin hüquqi əsaslarıdır. Yəni mətbuat azadlığı şəraitində bu hüquq necə reallaşdırılmalıdır? Jurnalistin hüquq və vəzifələrinin müəyyənləşdirilməsi də qanunun əsasını təşkil edir. Jurnalistin peşə fəaliyyəti üçün təkcə yaradılan hüquqi şərait yox, həm də jurnalistin məsuliyyəti müəyyənləşdirilir".

**Q.Məhərrəmli vurğulayıb ki, Azərbaycan qloballaşan dünyadakı proseslərdən təcrid olunmuş deyil:** "Bu, BMT-nin qəbul etdiyi insan haqlarına, Avropanın söz və mətbuat azadlığı ilə bağlı konvensiyasına tam uyğun olmalıdır. Belə bir hüquqi nüansların müəyyənləşdirilməsi medianın fəaliyyəti üçün şərait yaradır. Bu kimi məqamların sıralanması əlbəttə ki, medianın cəmiyyətdə yerini, statusunu göstərir və jurnalistin azad fəaliyyət göstərməsi üçün hüquqi şərait yaradır. Bu baxımdan media haqqında qanunun olması çox önəmlidir.

Media haqqında qanun layihəsini hazırlayarkən informasiya fəaliyyəti ilə bağlı digər qanunların uzlaşdırılması düzgün aparılmalıdır. Məsələn, bizdə informasiyalaşdırma, reklam və digərləri barədə qanunlar var ki, onlar "KİV haqqında" qanunla toqquşur.

Ona görə də bu nüansların nəzərə alınması çox vacibdir. Media haqqında qanunun olması bütövlükdə cəmiyyət üçün əhəmiyyətlidir. Yəni jurnalistlər öz azadlıqlarının sərhədlərini, cəmiyyət qarşısında rollarını bilməlidirlər.

Elə məsələlər var ki, onlar qanunla, elələri də var ki, etik qaydalarla tənzimlənir. Hüquqi sferanı məhz "KİV haqqında" qanun müəyyənləşdirir.

Amma etika ilə bağlı olan məsələlər jurnalistlərin peşə və davranış qaydaları ilə tənzimlənir. Belə olduqda media çox harmonik fəaliyyət göstərər bilir. Yeni qanun layihəsi heç bir halda mətbuatda çalışan insanların mediada hüquqlarını məhdudlaşdıra, söz və mətbuat azadlığına xələl gətirə bilməz. Məhdudlaşdırıcı maddələr qoyularkən bu məsələ mütləq nəzərə alınmalıdır".

**Yeganə Bayramova**

# Hökumətin formalaşmasını gözləmək lazımdır

*Deputat: "Ermənistan Azərbaycanın təklifinə isti yanaşacaq"*



Xarici işlər naziri Ceyhun Bayramov QDİƏT-ə üzv dövlətlərin Xarici İşlər Nazirləri Şurasının 43-cü iclasında çıxışı zamanı deyib ki, Azərbaycan hazırda Ermənistanla dövlət sərhədi boyunca sərhəd nəzarəti infrastrukturu qurur.

Ermənistana sərhəd delimitasiyası və demarkasiyası ilə bağlı ikitərəfli müzakirələrə başlamağı təklif edirik. Azərbaycan Ermənistanın müsbət reaksiyasını gözləyir.

O bildirib ki, Ermənistanda revanşist ritorika ilə müşayiət olunan Azərbaycana qarşı nifrət ciddi narahatlıq doğurur. "Ermənistandakı hakim və müxalif siyasi xadimləri birləşdirən anti-Azərbaycan nifrət nitqi kövrək normallaşma prosesini risk altına alır. Ermənistan, nəhayət, beynəlxalq humanitar hüquq, habelə üçtərəfli bəyanat çərçivəsində götürdüyü öhdəliklərini yerinə yetirməli və əlavə insan əzabının qarşısını almaq üçün minalanmış ərazilərin xəritələrini təqdim etməlidir", - deyə o əlavə edib.

**Millət vəkili Fəzail Ağamalı mövzu ilə bağlı fikirlərini "Şərq"lə bölüşüb:** "Prezident sərhədlərin müəyyənləşməsinə dair konkret mövqeyini bildirib və düşmənə lazımi mesajı verib. Dövlət başçısının təbirincə desək, sülh müqaviləsi yoxdursa, deməli, sülh yoxdur. Yəni tərəflər arasında müharibə şəraiti davam edir. Ümidvaram ki, İrəvan əslində özünün də maraqlarına xidmət edən isмarıcı müsbət qiymətləndirəcək. Amma bu, vaxt ala bilər. Çünki hələ hökumət formalaşmayıb. Əminəm ki, hökumət formalaşandan sonra Ermənistan Azərbaycanın təklifinə isti yanaşacaq".

**Kənan**

Qarabağdakı qondarma rejimin "Milli Təhlükəsizlik Xidməti" Xankəndidə yaşayan ermənilərə evlərini satmaq üçün edilən zənglərlə bağlı məlumat yayıb. Erməni mediasının xəbərinə görə, məlumatda ermənilərdən evlərini satın almaq üçün zənglərin əsasən Azərbaycan və Türkiyədən edildiyi iddia olunur. Qondarma qurumun nümayəndələri yerli əhaliyə xəbərdarlıq edib ki, tanımadıqları nömrələrdən gələn zəngləri qəbul etməsinlər. Hətta qəbul etsələr belə, bu barədə onlara məlumat versinlər.



# Xankəndidə 2 otaqlı mənzillərə 35-40 min dollar təklif olunur?

## Ermənilərə gələn müştəri zəngləri böyük təlaş yaradıb

Sosial şəbəkələrdə gedən müzakirələr zamanı isə məlum olub ki, Qarabağda yaşayan ermənilərdən ev almaq istəyənlər təkcə Türkiyə və Azərbaycandan deyil, həmçinin Ukrayna və Rusiyadan da zənglər edirlər. Onlar ermənilərə evlərinin müqabilində normal qiymət təklif edirlər. Elə Qarabağ erməniləri də eşitdikləri rəqəmdən dolayı sevincək olublar: "Xankəndidə ikiotaqlı mənzillər üçün 35-40 min dollar pul təklif olunur. İndiyə qədər ən maksimal rəqəm 60 min dollar olub. Bu rəqəmlər orada yaşayanlar üçün çox böyükdür. Ona görə də bir çoxları evlərinin sənədlərini qaydaya salaraq, onu satıb, sonra da Rusiyaya köçmək istəyirlər".

**Mövcud durumu "Şərq"ə dəyərləndirən siyasi analitik Turab Rzayevin fikrincə, olsa bilsin ki, həqiqətən də fərqli ölkələrdə yaşayan azərbaycanlılar, hətta bəzi ölkə nümayəndələri Xankəndiyə köçüb orada məskunlaşmaq istəsinlər:** "Bununla bağlı zənglərin edilməsi mümkündür. Ancaq digər məqam budur ki, bəlkə zəng edən şəxslər sadəcə olaraq ermənilərə yığıb onlara xatırladırlar ki, əvvəl-axır torpaqlarımıza dönüb, istədiyimiz mənzili alacağıq. Düşünürəm ki, vətəndaşlarımız ev almaqda ciddi ola bilər, ya da sadəcə qarşı tərəfə xatırlatma məqsədi ilə bu addımı atırlar. Bu baxımdan hansısa vətəndaş cəmiyyətləri, diaspor komitələri sistemli şəkildə ev almaq adı ilə ermənilərə xatırlatmalar edə bilərlər".

*T.Rzayev vurğulayıb ki, erməni cəmiyyəti və erməni təhlükəsizlik orqanları da belə zəngləri qəsdlə edə bilərlər:* "Məsələn, son günlər yayılmışdı ki, azərbaycanlılar həmin evləri baha qiymətə almaq istəyirlər. Ermənilər isə buna sevinmişdilər. Ola bilsin, sırf bununla bağlı erməni təhlükəsizlik xidməti əməkdaşları qəsdlə çaşbaşlıq yaradırlar. Yəni əhaliyə göstərsinlər ki, "baxın, azərbaycanlılar sizə yığsalar da, əslində evinizi almaq istəmirlər". Erməni təhlükəsizlik xidmətləri bu üsulla evlərin boşaldılmasının qarşısını almaq istəyirlər. Necə ki, Həmas Qəzzada yəhudilərə ev satmağı qadağan edir. Məhz erməni təhlükəsizlik orqanları xalqda qorxu formalaşdırıb gələcəkdə azərbaycanlılara evlərin satılmasına mane olmağa çalışırlar".

**Yeganə Bayramova**



# Dostumuzu, düşmənimizi yaxşı tanıdıq

## Qarabağı təkcə Ermənistan deyil, havadarları da talan edib

Azərbaycan öz torpaqlarını işğaldan təmizləməklə dostlarını və düşmənlərini tanıdı. Məlum oldu ki, işğal altındakı torpaqları minalardan təmizlədiklərini iddia edənlər əslində torpaqlarımızı minalayanlara kömək göstərib və ermənilər üçün mühəndis-istehkam qurğularının tikintisində iştirak ediblər. Həmin dövlətlərə aid şirkətlər, iş adamları isə Azərbaycan torpaqlarının qanunsuz istismarı nəticəsində külli miqdarda var-dövlət sahibi olublar. Ancaq qazandıqları pulların mənbəyi barədə heç bir dövlət qurumu, vətəndaş cəmiyyəti onlardan hesab tələb etməyib. Sanki başqa dövlətlərin ərazilərində quldurluq etmək, yaxud işğalçı Ermənistanla birləşib Azərbaycan torpaqlarına ziyan vurmaqla milyonlara sahib olmaq həmin şirkətlərə tapşırıq kimi verilib. Əks halda gördükləri qanunsuz əməllərə görə öz dövlətlərində məsuliyyətə cəlb edilərdilər, yaxud hesabat tələb olunardı.

**Politoloq Sədrəddin Soltan "Şərq"ə açıqlamasında ciddi faktları sadalayıb.** Ekspert bildirib ki, Kəlbəcər rayonunun təbii sərvətləri, sənaye əhəmiyyətli ehtiyatları, Söyüdlü (Zod) və Ağduzdağ və Tutxun qızıl yataqları 22 il Ermənistan və havadarları ilə birlikdə talan edilib: "1998-ci ildə Kanadanın "Canadian First Dynasty Mines Ltd" şirkəti ilə müqavilə bağlamış Ermənistan hökuməti 2002-2003-cü illərdə Zod yatağından 5 ton qızıl çıxarıb. Bundan başqa, qeyd edilən sahədə Ermənistanın növbəti ortağı Hindistanın "İndian Sterlite Gold Ltd" şirkəti olub. ABŞ-a məxsus "Global Gold Armenian Ltd" şirkəti də bu istiqamətdə ermənilərin əsas həmkarlarından biri idi. ABŞ istehsalı olan yüzlərlə müxtəlif "Caterpillar" maşınları, Almaniyanın "Deutz-Fahr" şirkətlərinin kənd təsərrüfatı texnikası, o cümlədən traktorlar, Belarusun "MT3-82,3" modelli traktorları, həmçinin digər texnikalar qeyri-qanuni istifadə olunub. İran bankı "Bank-e Mellat"ın Yerevan filialı da 2016-cı ilin aprelində separatçılara böyük məbləğdə maliyyə yardımı göndərmişdi. Ermənistan ərazisində kəskin çirklənməyə məruz qalan çaylardan biri də Oxçuçaydır. Çayın mənbəyində yerləşən Qacaran mis-molibden, Qafan mis saflaşdırma kombinatının toksik tullantıları, eyni zamanda həmin şəhərlərin məişət-çirkab tullantılarının təmizlənmədən birbaşa Oxçuçaya axıdılması çayda ağır metalların normadan dəfələrlə artıq qeydə alınmasına səbəb olur. Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən aparılan monitorinqlər göstərir ki, Oxçuçayın çirklənməsi digər transsərhəd çaylara nisbətən daha yüksəkdir".

Analitik qeyd edib ki, Ermənistanda fəaliyyət göstərən və Azərbaycana ziyan vuranlardan biri də Almaniyanın "Cronimet" şirkətidir. Ekspertin sözlərinə görə, bu şirkətin sahibi Almaniya vətəndaşı Hunter Pilarskidir. O, Zəngəzur mis-molibden kombinatının və Yerevan təmiz dəmir zavodunun səhmlərinin bir hissəsinin sahibidir: "Şirkət 10 ildən çoxdur Ermənistan bazarında fəaliyyət göstərir və Azərbaycan ekologiyasına qarşı terrorda iştirak edir. Onlar 1996-cı ildən Ermənistanda dağ-mədən sektorunda fəaliyyət göstərirlər. 2004-cü ildə Zəngəzur kombinatı özəlləşəndə "Cronimet" müəssisənin səhmlərinin 60 faizinə yiyələnib. Şirkət Afrika və Asiyanın onlarla ölkəsində də fəaliyyət göstərir. Hunter adı Ermənistan tərəfindən satın alınan erməni lobbiçiləri siyahısında var. Bu barədə "The USA Tribune" jurnalında yazı dərc edilib. "Cronimet"in adı Ermənistanın rəhbərləri ilə müxtəlif qalmaqallarda hallanır. Şirkətin gizli sahiblərindən biri də Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın kürəkəni, ölkəsinin Vatikandakı keçmiş səfiri Mikael Minasyandır. Sarkisyan Hunterlərin yardımı ilə Qarabağı talan edərək milyardlara sahib olub. Başqa sözlə, Almaniyanın bu şirkəti Serj Sarkisyanın qanunsuz varlanmasına dəstək olub, onun törətdiyi cinayət əməllərində iştirak edib. 2018-ci ilin noyabrında Pilarski Ermənistanın Baş naziri Nikol Paşinyanla görüşüb. Hökumət başçısı ona və şirkətinə fəaliyyətində uğurlar arzulayıb. Deməli, o, Azərbaycan torpaqlarının çirklənməsində Paşinyanla da əməkdaşlıq edib".

**İsmayıl**

# Xarabalıq bir ərazini abadlaşdırmaq daha yaxşıdı

## "Yaşıl Cənnət" üçün məkan heç də düzgün seçilməyib

Bakının yeni simvolu olacaq "Yaşıl Cənnət" (Green Paradise) yaradılır. Türkiyənin memarlıq şirkəti Tuncer Çakmaklı Architects, artıq Bakı meriyası tərəfindən təsdiqlənən "Yaşıl Cənnət"in yaradılması üçün bir layihə təqdim edib. Qeyd edək ki, "Yaşıl Cənnət"in sahəsi 16 450 kv.m olacaq. Layihə Səbail rayonunda, Dövlət Bayrağı Meydanından bir qədər aralıda həyata keçiriləcək. İşin 2023-cü ilin sonunadək başa çatdırılması nəzərdə tutulub.



**"Paytaxtımızın girişində - dənizkənarı yol boyu Su İdmanı Sarayı ilə Gəmi Təmiri zavodunun arasında biabırçı, bərbad hissə boş qalıb"**

**"Altay" Sosial-İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri Elçin Bayramlı "Şərq"ə açıqlamasında qeyd edib ki, yeni layihə həm maraqlı, həm gözəl, həm də çox vacib bir layihədir.** O vurğulayıb ki, məkan baxımından yer heç də düzgün seçilməyib: "Bulvarın Dövlət Bayrağı Meydanı hissəsi və yaxınlığı onsuz da abaddır, gözəldir, yaşıllıqdır. Lakin ondan bir qədər aralıda paytaxtımızın girişində - dənizkənarı yol boyu Su İdmanı Sarayı ilə Gəmi Təmiri zavodunun arasında biabırçı, bərbad hissə boş qalıb. Həmin mənzərələri gördükdə şəhərə girən adamın ürəyi lap bulanır. Görünən isə odur ki, Bakının Cənub girişi günü-gündən müasirləşən, abadlaşan paytaxtımızla müqayisədə çox geridə qalıb. Bibiheybət məscidindən Su İdmanı Sarayınadək uzanan təxminən 2 kilometr məsafədə boz çöllər, ötən əsrin 30-40-cı illərindən qalma istifadəyə yararsız, hələ də sökülməyən mənasız tikililər, neft gölməçələri insanı məyus edir. Təəssüflə deməliyik ki, bu ərazi Bakının 20-ci əsrin əvvəllərindəki miskin mənzərəsini xatırladır. Şəhərimizə gələn qonaqların ilk gördüyü mənzərə və paytaxtımızla bağlı ilk təəssüratları da, buradan başlayır. Bunula da Bakı haqda ilk təəssürat belə dəhşətli olur. Paytaxtımızda bundan bərbad, xarabalıq, çöllük yer yoxdur. Özü də şəhərin mərkəzinə lap yaxın bir yerdə. Ərazidə köhnə, artıq heç nəyə yaramayan neft buruqları var. Qeyd edim ki, onların çoxu artıq sökülüb, qalanları da bir işə yaramır. Xüsusilə yay aylarında neft buruqlarının ətrafındakı gölməçələrdən buxarlanan kəskin qoxulu qaz şəhərin ekologiyası və ətrafda yaşayan sakinlərin sağlamlığı üçün ciddi təhlükə mənbəyidir. Neft Şirkətinin ordakı qurğuları hər gecə havaya böyük həcmdə zəhərli qazlar buraxır ki, yaxınlıqda yaşayan binaların sakinləri az qalır boğulub ölsün. Bu xoşagəlməz qoxunu həmin sahədə inşa edilmiş jurnalist binalarının sakinləri də mənzillərində hiss edirlər. Bəzi məlumatlara görə, ərazidə zəif miqyaslı radioaktiv fon da mövcuddur. Küləkli havalarda ətraf toz-dumana bürünür, necə deyərlər, göz-gözü görmür. Baxımsız, qumsal ərazidən qalxan toz-torpaq şosse yolunu görünməz edir və ətrafdakı binaların mənzillərinə dolur. Hətta bu ərazi gecələr kriminal hesablaşmalar üçün də istifadə olunur. Maraqlıdır, ərazidəki cinayətkarlıq mənbəyi olan tamamilə köhnə, uçuq, istifadəsiz tikililər kimə lazımdır? Qaranlıq vaxtı belə istifadəsiz və yararsız binalara narkomanların yığışdığı haqda da xəbərlər yayılır. Şübhəsiz, ərazi abadlaşdırılsa, burada yaşıllıq və park salınsa, mövcud problemlər də aradan qalxar".

**E.Bayramlı əlavə edib ki, dənizlə yol arasında 2 km-ə yaxın eni olan bu ərazini abadlaşdırmaq, orada park, idman meydançaları, dənizə yaxın hissədə isə çimərliklər yaratmaq olar:** "Neft buruqlarının xeyli hissəsi fəaliyyətini dayandırıb. Əlbəttə, neft ehtiyatlarına malik buruqların ətrafını abadlaşdırmaq, buranı açıq neft muzeyinə çevirmək, ərazidə idman meydançaları və parklar salmaq olar. Qeyd edim ki, həmin ərazi çox böyükdür. Qısası, onsuz da abad bir ərazini yenidən abadlaşdırmaqdansa, xarabalıq bir ərazini abadlaşdırmaq daha yaxşıdır. Necə ola bilər ki, bu sahəyə məsul şəxslərin və layihəyə yer seçənlərin, bu, ağlına gəlmir? Yəni dəniz kənarında bu qədər nəhəng ərazilər ola-ola, niyə hər tərəfdən buxtaya iri bir süni hissə salıb təbii mənzərəni korlayırlar? Əminəm ki, bu suallara cavab verilməyəcək. Bilirsiniz ki, mən şəhərdə gedən abadlıq-quruculuq proseslərinə şəxsən nəzarət edirəm, bir çox layihələrin təşəbbüskarı olmuşam. Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı doğrudan da dünyanın ən gözəl şəhərlərindən biridir. Biz də elə etməliyik ki, Bakı şəhərinin hər bir yeri abad olsun və vətəndaşları narahat edən bir sıra problemlər aradan qaldırılsın".

**Aynurə Pənahqızı**



# "Panika yaratmağa dəyməz"

## Ramin Nəriman: *"Delta" ştammının Azərbaycanda aşkar olunması gözlənilən bir haldır"*

Bir müddət əvvəl Hindistanın Maharaştra ştatında ilk dəfə qeydə alınan koronavirusun "delta plus" (B.1.617.2.1) adlı yeni ştammı sürətlə yayılmaqda davam edir. Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) isə bir neçə gün öncə keçirilən brifinqdə "Delta" koronavirus ştammının 92 ölkədə qeydə alındığını açıqlayıb. Bu ştammın artıq qonşu Gürcüstanda, İranda da qeydə alınması ölkəmiz üçün real təhlükəyə çevrilib.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyindən (TƏBİB) bildirilib ki, bu günə kimi Azərbaycanda "Hindistan ştammı" (Delta) rəsmi şəkildə qeydə alınmayıb. Təbii ki, yeni ştamm barədə söhbətlər insanları ciddi narahat etməyə başlayıb. Yeni ştammla bağlı həkim allerqoloq, pulmonoloq Ramin Nərimanla söhbətləşdik. Həkim "Şərq"ə müsahibəsində bir sıra məqamlara aydınlıq gətirib.

**- Ramin bəy, məlum olduğu kimi, qonşu ölkələrdə artıq "Delta" ştammı rəsmi olaraq qeydə alınıb. Sizcə, Azərbaycan üçün də yeni ştamm gözləniləndirmi?**

- İlk olaraq qeyd edim ki, artıq Azərbaycanla qonşu olan, o cümlədən də sıx siyasi-iqtisadi əlaqələri olan bəzi ölkələrdə Hindistan ştammı rəsmi şəkildə qeydə alınıb. Xüsusilə, Rusiyada, Türkiyədə, Gürcüstanda, hətta artıq Ukraynada bir neçə vaxtdır ki, koronavirusun "Delta" variantı sürətli şəkildə yayılmağa başlayıb. Təbii ki, Azərbaycanın da həmin ölkələrlə sıx əlaqəsi var. Ona görə də "Delta" ştammının Azərbaycanda aşkar olunması gözlənilən bir haldır.



### "50 nəfərə qədər yığıncaqlarda maskanın tətbiq olunması o qədər də düzgün verilmiş qərar deyil"

**- "Delta" ştammının ölüm riski hansı səviyyədədir?**

- Bu günə qədər olan rəsmi məlumat ondan ibarətdir ki, həmin ştammın yayılma sürəti koronavirusun digər ştammları ilə müqayisədə nisbətən çoxdur. Amma onun ölümcülük dərəcəsinin yüksək olması haqqında hər hansı bir rəsmi məlumat yoxdur. Ona görə də düşünürəm ki, "Delta" variantının Azərbaycanda və yaxud da ki, hər hansı bir dünya ölkəsində yayılmasına görə panika yaratmağa dəyməz.

**- Peyvənd olunmuş şəxslərin yeni virusa yoluxma ehtimalları hansı səviyyədədir?**

- Koronavirus əleyhinə olan peyvəndlər tam qoruyucu bir vasitə deyil. Sadəcə olaraq həmin peyvəndlər koronavirusdan ölüm saylarının azalmasına səbəb olur. Eləcə də xəstəliyin yüngül keçməsinə köməklik göstərir. Bu günə qədər də kovid əleyhinə olan vaksinlərin hamısının yeni yaranan ştammlara effektivliyi təxminən eynidir. Yəni onlar tam qoruyucu deyil.

**- Sizcə, yay günlərində peyvənd olunmuş şəxslər xüsusilə nələrə diqqət etməlidirlər?**

- Peyvənd olunan gün və peyvənddən sonrakı yaxın iki-üç gün müddətində peyvənd olunan şəxslərə gərgin fiziki iş görmək, çimmək, duş, sauna, vanna qəbul etmək olmaz. Ümumiyyətlə, həmin şəxslərə gün altında olmaq, dənizə getmək, alkoqol qəbul eləmək və idman etmək məsləhət görülmür. İki-üç gündən sonra isə peyvənd olunan şəxslər əvvəlki həyatlarına sərbəst davam edə bilərlər. Əgər kimlərdəsə peyvənddən sonra ağırlaşma olarsa, artıq ona uyğun da tədbir alınır.

**- Bilirsiniz ki, müəyyən qaydalarla artıq toy, nişan, ad günü mərasimlərinin keçirilməsinə icazə verildi. Bir həkim kimi yeni qaydalara münasibətiniz maraqlıdır?**

- Düşünürəm ki, 50 nəfərə qədər yığıncaqlarda maskanın tətbiq olunması o qədər də düzgün verilmiş bir qərar deyil. Bu gələcəkdə qanundan kənar halların, yeni səbəbsiz yerə cərimələnmələrin və bu cərimələrdən yayınmaq üçün müəyyən qanundan kənar halların baş verməsinə səbəb olacaq. Belə neqativ hallarla qarşılaşmamaq üçün ən yaxşı çıxış yolu insanların kovid əleyhinə peyvənd olunmasıdır.

**Aynurə Pənahqızı**

# Bitmiş insanlar...

## Elektron qolbağı gəzdirən insanlar belə yenə cinayət əməlindən əl çəkmir

Ağdaş Rayon Polis Şöbəsinin əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə və kultivasiyasına qarşı əməliyyat tədbiri keçirib. DİN Mətbuat Xidmətinin Şəki regional qrupundan "Şərq"ə verilən məlumata görə, keçirilən əməliyyat zamanı narkotik vasitələri əkib-becərməkdə şübhəli bilinən Ağdaş rayon sakini, əvvəllər də məhkum olunmuş Əliağa Rəhimov saxlanılıb. Onun yaşadığı evin həyətyanı sahəsinə baxış keçirilən zaman ümumi çəkisi 7 kiloqram 130 qram olan 14 ədəd çətənə kolu aşkar edilib.

Saxlanılan şəxs narkotik tərkibli bitkiləri bir müddət əvvəl əkdiyini və aqrotexniki qaydada xüsusi qulluq edərək yetişdirdiyini bildirib. Faktla bağlı diqqət çəkən məqam budur ki, saxlanılan Ə.Rəhimov azadlığın məhdudlaşdırılması növündə cəzaya məhkum edilmiş şəxsdir. O, məhkumlar üçün nəzərdə tutulan elektron qolbağa "sahibdir". Buna baxmayaraq həmin şəxs analoji cinayət əməli törətdiyi üçün polis əməkdaşları tərəfindən yenidən saxlanılıb. Faktla bağlı Ağdaş Rayon Polis Şöbəsində cinayət işi başlanılıb, istintaq tədbirləri davam etdirilir.

### *"Narkotik maddə ticarətçiləri dəfələrlə yaxalanır, azadlıqdan məhrum edilir, lakin azadlığa çıxanda yenə köhnə peşələrinə qayıdırlar"*



Bir insan azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilsin, biləyində də elektron qolbaq gəzdirsin və buna məhəl qoymayaraq narkotik bitki əkib-becərsin. Heyrətlidir. Bu insan biləyindəki qolbağın onu ələ verəcəyini bilmirmi?

**Hüquqşünas Adəm Məmmədov "Şərq"ə açıqlamasında qeyd etdi ki, insan hansısa əmələ vərdiş etdisə, ondan yaxa qurtarması müşkül olur:**

- Görürsünüz, narkotik maddə ticarətçiləri dəfələrlə yaxalanır, azadlıqdan məhrum edilir, lakin azadlığa çıxanda yenə köhnə peşələrinə qayıdırlar. Oğrular, dələduzlar, fırıldaqçılar, qaçaqmalçılıqla məşğul olanlar... onlar da bu qəbildəndir. Bunlar bitmiş insanlardır. Doğrudur, onların da arasında islah olunan, cəmiyyətin faydalı üzvünə çevrilənlər olur. Lakin belələri də var ki, hətta elektron qolbaqla gəzdiyi halda yenə cinayət əməlindən əl çəkmir.

**A.Məmmədov bildirdi ki, elektron qolbaq cinayətkarın hüquq-mühafizə orqanları tərəfindən müəyyənləşməsinə kömək edir:**

- Cinayət Məcəlləsində bəzi maddələr var ki, nisbətən yüngül cəza növü nəzərdə tutur. Bura alternativ cəza növləri də daxildir, o cümlədən də azadlıqdan məhrumetmə yox, azadlığın məhdudlaşdırılması cəzası. Vətəndaşın törətdiyi əməl ilk cinayət hadisəsidirsə, bundan əvvəl məhkumluğu olmayıbsa, törətdiyi əməl cəmiyyət üçün, insanlar üçün kütləvi, böyük təhlükə ehtimalı daşımırsa, o şəxs barəsində azadlığın məhdudlaşdırılması cəza növü tətbiq edilə bilir. Belə cəza növündə şəxsə elektron qolbaq taxmaq zərurətə çevrilir. Qolbaqla birlikdə ona enerji batareyası da verilir ki, qolbağı daim işlək vəziyyətdə saxlasın. Bu, elektron sistemdir, əgər şəxs qolbağı çıxarırsa, kompüterə həmin an siqnal daxil olur. Qolbaqda problem yarananda da elektron sistemdə qeydə düşür. Elektron qolbaq taxılmış insan onun üçün müəyyənləşmiş ərazinin hüdudlarını tərk edə bilməz, konkret saatda yaşadığı ərazidə olmalıdır. Bu insan bilməlidir ki, o, fasiləsiz nəzarət altındadır. Bu nəzarəti isə Ədliyyə Nazirliyinin probasiya xidmətinin icra məmurları həyata keçirir.

*A.Məmmədov qeyd etdi ki, elektron qolbaq taxıldığı halda yenidən cinayət əməli törədənlər ictimai təhlükəli şəxslər hesab edilir. Ona görə də belə adamların cəzasının artırılacağı və ya ağırlaşdırılacağı gözlənilir.*

**Məlahət Rzayeva**

# "Putin Qərbin bölgəyə gəlişindən narahatdır"

Antalya şəhərində Türkiyənin Xarici işlər naziri Mövlud Çavuşoğlu ilə rusiyalı həmkarı Sergey Lavrov arasında görüş keçirilib. Tərəflər iki ölkə arasındakı əlaqələri və beynəlxalq gündəmin aktual məsələlərini müzakirə ediblər.



## Asif Nərimanlı: "Rusiya buna görə üçtərəfli bəyanatın şərtlərinin sürətli icrasında maraqlıdır"

Belə ki, XİN başçıları əməkdaşlığın inkişafını, təhlükəsiz turizm məsələlərini, "Sputnik V" vaksininin Türkiyədə tətbiqini, Suriya və Liviya durumu nəzərdən keçiriblər. Tərəflər həmçinin Cənubi Qafqazda, xüsusilə də Qarbağdakı vəziyyəti müzakirə ediblər. Siyasi analitik Asif Nərimanlı sözügedən görüş barədə "Şərq"in suallarını cavablandırıb:

**- Dialoqun məhz indiki məqamda baş tutması nə ilə bağlıdır?**

- Əslində bu, gözlənilən idi. Məlum olduğu kimi, bu günlərdə dövlət başçısı İlham Əliyev rusiyalı həmkarı Vladimir Putinə zəng etmişdi. Tərəflər üçtərəfli bəyanatın icrasını müzakirə etmişdilər. Ardınca Putinlə Ermənistan Baş naziri Nikol Paşinyan arasında telefon danışığı oldu. Ardınca isə Putinlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan danışdılar. Görünür, artıq siyasi iradə var. Çavuşoğlu ilə Lavrov arasındakı görüş dövlət başçısının başlatdığı zəng trafikinin davamıdır.

**- Moskvanın indiki proseslərdəki mövqeyi nədən ibarətdir?**

- Kreml Qərbin bölgəyə gəlişini istəmədiyinə görə üçtərəfli bəyanatın şərtlərinin sürətli icrasında maraqlıdır. Həmin müddəalardan biri də erməni qoşunlarının Qarabağdan çıxarılmasıdır. Bu, şimal qonşumuzu narahat edir. Çünki proses reallaşsa, Qarabağdakı mövcudluğu azalacaq. Odur ki, başqa variantlar axtarır. Fikrimcə, Lavrov bu məsələni də gündəmə gətirib. Amma başqa məqamlar da var.

**- Hansılar?**

- Çox güman, Şuşa Bəyannaməsinin şərtləri barədə danışılacaq. Eyni zamanda Ağdamdakı monitorinq mərkəzinin fəaliyyətinin və Türkiyənin buradakı hərbi kontingentinin artırılmasının müzakirə olunduğunu da istisna etmirəm.

**- Putin deyib ki, kimsə Qarabağda konfliktin yaranmasında maraqlı deyil. Dediklərinizə əsaslansaq, onun bu açıqlaması nə qədər səmimidir?**

- Əlbəttə, Kreml rəhbərliyinin məhz indiki məqamda bu bəyanatı səsləndirməsi diqqət çəkir. Dediyim kimi, Putin Qərbin, o cümlədən Bayden administrasiyasının bölgədəki təsir gücünün artmasından narahatdır. Kreml rəhbərliyi bu açıqlama ilə Qərbə mesaj verdi ki, özümüz məsələni həll etmişik. Azərbaycan və Türkiyəyə ismarıcı isə bu məsələdə alternativ tərəfə ehtiyac olmadığıdır. Onu da deyim ki, bu, Şuşa Bəyannaməsindən sonra regiondakı güc balansının Bakı və Ankaranın xeyrinə dəyişdiyinə işarədir.

**Kənan**



# Erməni rəsmiləri hələ öz xalqını çox aldadacaq

## "Qriqoryanın açıqlaması erməni ictimaiyyətini sakitləşdirmək, onların narahatlığını aradan qaldırmaq üçündür"

Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan ortaya yeni iddia atıb. O bildirib ki, Rusiya sülhməramlıları Qarabağı 4,5 il sonra tərk etməyəcəklər. Qriqoryan ona bu zəmanəti rusiyalı həmkarlarının verdiyini söyləyib. Azərbaycan ictimaiyyəti, siyasi dairələri aylardır bu məsələni müzakirə edir.

Əksəriyyət rusların 5 ilin tamamında bölgəni tərk edəcəyinə şübhə ilə yanaşsa da, əvvəl-axır Rusiya sülhməramlılarının Qarabağdan gedəcəyi vurğulanır. İstənilən halda Təhlükəsizlik Şurasının baş katibinin sözləri müəyyən məqamları gündəmə gətirir. Əlbəttə, Qriqoryanın məlum bəyanatı sadəcə erməni ictimaiyyətinə hesablanmış açıqlama da ola bilər. Yaxud, Rusiya rəsmiləri Ermənistan hökumətinin narahatlığını nisbətən azaltmaq üçün onlara bu cür "qarantiya" veriblər.

**Qriqoryanın açıqlamasını "Şərq"ə dəyərləndirən AĞ Partiya sədri Tural Abbaslı hesab edir ki, Ermənistan hökumətinin rəsmi nümayəndələrinin bəyanatlarına ciddi yanaşmaq lazım deyil.** Partiya rəhbəri deyib ki, başda Paşinyan olmaqla, digər erməni rəsmiləri, yüksək rütbəli hərbçilər müharibə dövründə xalqı dəfələrlə aldadıblar: "İndi rəhbərlikdə olanlar erməni xalqına yalan danışmış şəxslərdir. Uydurmalarla gündəmə gəlmək, xalqın başını qatmaq erməni rəsmilərinin əsas missiyasıdır. Qarabağ məsələsində Ermənistan tərəf deyil. Bütün məsələlər Rusiya-Azərbaycan və Türkiyə dövlət başçılarının arasında həll olunur. Qriqoryanın açıqlaması erməni ictimaiyyətini sakitləşdirmək, onların narahatlığını aradan qaldırmaq üçündür. Rusiya sırf bu məqsədlə erməni siyasilərinə "vəd" verib. Xatırlayırsızsa, müharibədən qabaq KTMT-dən müəyyən açıqlamalar gəlirdi ki, guya, Azərbaycan Ermənistanla müharibəyə başlasa, qurum dərhal müdaxilə edəcək, Gəncəyə qədər gedib çıxacaqlar və s. Bunların heç birinin reallaşmadığını ermənilər gördülər. Rusiya sülhməramlıları ilə bağlı erməni tərəfi manipulyasiya edir. Əgər rəsmi Bakı istəməzsə, 5 il sonra Rusiya sülhməramlıları Qarabağda qala bilməz və qalmamalıdır. Rusiya Azərbaycanın tələbindən boyun qaçırarsa, Moskvaya qarşı da mübarizəmizi davam etdirəcəyik. Bizim üçün işğalçının kimliyinin heç bir fərqi yoxdur".

"Qarabağ məsələsində Ermənistan tərəf deyil. Bütün məsələlər Rusiya-Azərbaycan və Türkiyə dövlət başçılarının arasında həll olunur"

*T.Abbaslı əlavə edib ki, bir ölkənin Təhlükəsizlik Şurasının katibinin "Rusiya Qarabağdan getməyəcək, bizə söz veriblər" bəyanatının özü göstərir ki, Ermənistan müstəqil dövlət deyil:* "Erməni iqtidarı öz xalqının təşvişini azaltmaq, onların təhlükəsizliyini təmin etmək üçün başqa bir dövlətin ordusuna ümid bəsləyir. Bəs belə halda Ermənistanın ayrıca dövlət olmasına nə ehtiyac var?! Bu bəyanat bir daha sübut edir ki, Ermənistan Rusiyanın federasiyasıdır".

**İsmayıl Qocayev**

# Zəngəzurda tikilən bunkerlərin heç bir mənası yoxdur

44 günlük Vətən müharibəsindən sonra ermənilərin işğal etdikləri ərazilərimizdə bir sıra bunkerlər tikdiklərinin şahidi olduq. Ötən gün erməni mediasında ermənilərin Zəngəzurda yeni bunkerlər tikdikləri barədə məlumat yayılıb. İlk olaraq qeyd edək ki, bunkerlər bir vaxtlar düşmən qüvvələrinə atəş etmək üçün hazırlanmış kifayət qədər təsirli bir gizlətmə vasitəsi olub.



"44 günlük Vətən müharibəsi zamanı ordumuz tərəfindən ermənilərin bunkerləri, o cümlədən də bir çox hərbi məntəqələri darmadağın edildi"

Əsas döyüş vəzifəsi qarşı tərəfə mümkün qədər çox itki yaşatmaq, eyni zamanda bunkerin özünü toxunulmaz və təhlükəsiz saxlamaq idi. Bunkerlərin tikintisində əsasən ağac və daşlardan istifadə olunur. Ekspertlər hesab edir ki, bu gün bunkerlərin heç bir önəmi qalmayıb. Xüsusən 44 günlük Vətən müharibəsində Füzulidə düşmənin on metrlərlə dərinində inşa edilən bunkerlərinin darmadağın edilməsi də bunun sübutudur. Bəs Ermənistan nəyə görə hazırda bunker inşa edir?

**Sualımızı cavablandıran siyasi-şərhçi Turan Rzayev "Şərq"ə açıqlamasında vurğulayıb ki, ermənilər bundan öncə də 27 il müddətində işğal etdikləri Qarabağ ərazisində müxtəlif tipli bunkerlər tikmişdilər. O qeyd edib ki, bu bunkerlər Azərbaycan Silahlı Qüvvələrinin qarşısını ala bilmədi:** "Bu tipli bunkerlərin əsas məqsədi adətən müharibə sonrası ərazidə gerilla müharibələri zamanı istifadə olunur. Yəni onlar ərazidə bərpa prosesinin ləngidilməsi istiqamətində pozucu fəaliyyətlər üçün burada qalan yerli və ya separatçı qrupların istifadəsi üçün nəzərdə tutulur. Ancaq qeyd edək ki, 44 günlük Vətən müharibəsi zamanı ordumuz tərəfindən ermənilərin bunkerləri, o cümlədən də bir çox hərbi məntəqələri darmadağın edildi. Yəni nəticə etibarilə biz gördük ki, bunkerlər ordumuzun qarşısını ala bilmədi. Bəli, bu gün ermənilərin Zəngəzurda da bənzər şəkildə bunkerlər tikdikləri ehtimalı var. Hesab edirəm ki, bu tipli xəbərlərin çıxmağında əsas məqsəd Ermənistan öz daxilində Zəngəzurun növbəti hədəf olduğu təəssüratını yaratmaq istəyir".

T.Rzayev əlavə edib ki, Azərbaycan bütün qonşularının, o cümlədən də Ermənistanın ərazi bütövlüyünə hörmətlə yanaşır. "Ermənilərin bu tipli təşviş yaratmaqları isə mənasızdır. Yəni bu, ilk növbədə özləri üçün ziyandır. Həmçinin bu tipli bunkerlər onsuz da Qarabağ müharibəsində effektiv olmadığını sübut elədi. Əgər yenidən müharibə başlayarsa, bunkerlər erməniləri qoruyası deyil. Ümumiyyətlə, bu taktika müasir döyüş doktorinalarında da öz əksini tapmayıb".

**Aynurə Pənahqızı**

## İctimai və dövlət maraqlarının müdafiəsi

# Peşə məktəbləri hörmət qazanır

### *Çünki bəzi peşələr ali təhsildən daha çox gəlir gətirir*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ötən ilin yayında Emin Əmrullayevin təhsil naziri təyin olunması ilə əlaqədar video-formatda qəbulu zamanı təhsilimizin bütün sahələrinə işıq saldı. Təhsildəki irəliləyişlər, inkişaf, hansı sahələrdə islahatların aparılmalı olduğunu xatırlatdı. O cümlədən peşə təhsilindən də danışdı. Prezident qeyd etdi ki, peşə təhsili xüsusi əhəmiyyət daşıyan məsələdir, xüsusilə indiki şəraitdə: "Bu gün Azərbaycanda yaradılan yeni peşə məktəbləri əlbəttə ki, sovet vaxtında mövcud olan peşə məktəblərindən böyük dərəcədə fərqlənir.**

Sovet vaxtında daha çox orta məktəbdə böyük nəticələr əldə edə bilməyən uşaqlar 8-ci sinifdən peşə məktəblərinə üz tuturdular və bu, adi bir praktika idi. Bu gün isə peşə məktəbləri çox böyük hörmətə layiq məktəblər olmalıdır. Son illərdə bəzi xarici tərəfdaşlarla Azərbaycanda bir neçə peşə məktəbi açılıb və bu peşə məktəblərinə orta məktəbdə yaxşı oxuyan uşaqlar da üz tuturlar. Bunu həvəsləndirmək vacibdir, çünki bizə peşəkar kadrlar lazımdır. Bu gün ölkəmiz elə sürətlə inkişaf edir ki, kadr hazırlığı ölkəmizin sənaye, iqtisadi inkişafına uyğun inkişaf edə bilmir. Bunun nəticəsində bizim son illər ərzində yaradılmış bir çox müasir müəssisələrdə xarici mütəxəssislər bütün rəhbər orqanlarda təmsil olunurlar. Mən buna normal baxıram, burada problem görmürəm. Bu, bütün dünyada belədir və peşəkar kadrların miqrasiyası təbii prosesdir. Amma mən çox istərdim ki, bizim kadrlarımız da yetişsin və həm Azərbaycanda, həm də başqa ölkələrdə azərbaycanlı kadrlar yüksək vəzifələrdə işləsinlər. Ona görə peşə məktəblərinin bu sahədə çox böyük əhəmiyyəti var. Əlbəttə ki, burada da, ilk növbədə, ümumi inkişaf meyilləri nəzərə alınmalıdır, hansı peşələr bizə nə vaxt lazım olacaq". Prezident çıxışında qeyd etdi ki, bu gün ölkəmizdə kənd təsərrüfatının inkişaf sürəti yüksəkdir və bu sahəyə marağın artdığı görünür. Ona görə bu sahə üzrə peşə məktəbləri olmalıdır. Həmçinin turizm, menecment sahələrinin, texniki peşələrin müasir standartlara cavab verməsi üçün addımlar atılmalıdır: "Odur ki, peşə məktəblərinin gələcək inkişafı daim diqqət mərkəzində olmalıdır. Bir neçə ölkədən ilkin təkliflər də irəli sürüldü. Artıq bizim təcrübəmiz var. Biz bunu adətən bu formada edirik ki, misal üçün, Azərbaycan tərəfi bütün texniki məsələləri və maliyyə məsələlərini öz üzərinə götürür. Xarici tərəfdaş isə sadəcə olaraq, tədris proqramlarını, texnologiyaları və müasir standartları ölkəmizə idxal edir". Prezident bu çıxışı ilə təhsilin, o cümlədən peşə təhsilinin inkişaf istiqamətlərini müəyyən etdi. Hazırda peşə təhsili sahəsində irəliləyişlər özünü göstərir.

## Artıq bu sahəyə orta məktəblərdə yaxşı oxuyan şagirdlər də üz tuturlar

### Peşə məktəblərinin məzunları iş tapmaqda çətinlik çəkmir

Milli Məclisdə"Ali təhsil haqqında" qanun layihəsinin müzakirəsi zamanı Təhsil naziri Emin Əmrullayev peşə təhsilinin inkişaf perspektivləri barədə danışıb. Nazir çıxışında peşə təhsilinə marağın artdığını deyib: "Son illər ölkədə peşə təhsilinə marağın artdığının şahidi oluruq. Belə ki, son ildə peşə təhsilinə 30 faiz məzun gəlmək istəyib. Vacib məsələ peşə məktəbini bitirən şəxsin sonradan iş yeri tapmasıdır. Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzinin 42 məzunu iş tapa bilib. Deyərdim ki, bu rəqəm bəzi ali məktəblərin göstəricisindən daha yaxşıdır".

"Azərbaycanda peşə təhsili bir növ dalan rolunu oynayırdı. İnsanlar peşə təhsili alırdılar, amma heç bir yerdə işlə təmin oluna bilmirdilər. İndi isə vəziyyət dəyişib. Yüksək peşə ixtisas təhsilinə başlamışıq. Onlar öz ixtisaslarına uyğun olaraq imtahan vermədən universitetə qəbul ola biləcəklər. Bununla da peşə təhsilinə maraq artacaq".

E.Əmrullayev bildirib ki, məzunların işlə təminatında peşə təhsili böyük potensiala malikdir: "Lənkəran və Bakıda iki yeni peşə təhsil müəssisəsinin təməli qoyulub. Bu il Sumqayıtda peşə məktəbinin planlaşdırılmasını həyata keçirəcəyik. Bir çox bölgələrdə peşə təhsil müəssisəsi yoxdur. Peşə təmayüllü siniflərə başladıq. Bu gün üçün 35 məktəbdə peşə təmayüllü sinfin məzunu var. Növbəti il bu sayın 60-a qaldırılması planlaşdırılır".

### Gələcəyin peşələrinə yiyələnmək vacibdir

Ölkənin sosial-iqtisadi inkişafında müxtəlif peşələr üzrə ixtisaslı kadrların olması vacibdir. Peşə təhsilinə, təbii ki, ötən əsrin standartları ilə yanaşmaqla müsbət nəticələrə nail olunacağını gözləmək absurddur. Peşə təhsilinin də müasir dünya ilə ayaqlaşması gərəkdir. Hazırda adi rəngsazın da kompüterdən baş çıxarması, rənglənməni kompüterdə müəyyənləşdirməsi, sifariş edilmiş rəng çalarının alınması üçün kompüter texnologiyasını bilməsi tələb olunur. Dörd bir yanımızda elektronlaşmaya bağlı çoxlu sayda yeni peşələr mövcuddur. Sənayedə kompüter texnologiyalarını, proqramlaşdırma və rəqəmsallaşmanı bilmədən uğur əldə etmək mümkün deyil. Ölkənin inkişafı bundan asılı olduğu kimi, vətəndaşların işlə təmini də böyük mənada buna bağlıdır. Bu gün kimsə, mən ali təhsilliyəm və ya peşə təhsilim var, amma iş tapa bilmirəm, deyirsə, öz bilik və bacarıqlarına yenidən baxmalıdır.

Təhsil Nazirliyi kadr potensialının dünyada gedən sənayeləşmə prosesinə hazırlıqlı olması üçün müxtəlif təhsil pilləleri üzrə fəaliyyəti stimullaşdırmağa çalışır. Peşə Təhsili üzrə Dövlət Agentliyi tərəfindən kompüter-texniki ixtisaslar daxil olmaqla 120 ixtisas üzrə mütəxəssislər hazırlanır. Nazir də bu barədə danışaraq təlim-tədris prosesinin gələcək istiqamətlərin mütəmadi təhlilinə uyğun olaraq formalaşdırıldığını deyib: "Bu il sənayenin iştirakı ilə hazırlanan yüksək texniki peşə pilləsi üzrə yeni ixtisaslara qəbul aparılacaq. "WorldSkills" təşkilatı ilə əməkdaşlıq çərçivəsində gələcəyin peşələrinə dair beynəlxalq standartların tədris resurslarımıza inteqrasiyasını və tələbələrimizin beynəlxalq peşə olimpiadalarında iştirakını təmin edəcəyik. Eyni zamanda, Peşə təhsili infrastrukturunun müasirləşdirilməsi istiqamətində də fəaliyyətimiz davam edir. 2019-cu ildə Prezident İlham Əliyevin açılışını etdiyi Koreya standartları əsasında qurulmuş Sənaye və İnnovasiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi müxtəlif ixtisaslar üzrə kadrlar hazırlayır. Bərdə, Cəlilabad, Lənkəran və Mingəçevirdə müasir peşə təhsil mərkəzlərinin açılışı planlaşdırılır. Biz ümumi təhsil sahəsində də şagirdlərimizin bu prosesə hazırlıqlı olması üçün müxtəlif layihələr çərçivəsində Robototexnika, 3D CAD Modelləşdirmə və Çap, Proqramlaşdırma, Nano və Neyro texnologiyalar, Mühəndislik modulları əsasında öyrətməni həyata keçiririk. Eyni zamanda təhsilalanlara müasir peşələr üzrə ilkin bilik və bacarıqları aşılamaq üçün peşə təmayüllü sinifləri təşkil edərək prosesin sürətləndirilməsində maraqlıyıq".

### Əmək bazarında peşə ixtisaslı kadrlara daha çox ehtiyac var

**Təhsil məsələləri üzrə ekspert Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında şagirdlər arasında peşə təhsilini seçənlərin az olmadığını dedi:**

- Bu gün peşə təhsilinin inkişafı və bu istiqamətə marağın artması üçün kifayət qədər işlər görülür. Etiraf edək ki, peşə təhsilinə maraq bu günə qədər çox az olub. Bu gün də kifayət qədər maraq var desək, yanılmış olarıq. Amma əvvəlki illərə nisbətən müsbət dinamika müşahidə olunur. Bilirsiniz, bu günə qədər əksəriyyət yalnız ali məktəb haqqında daha çox düşünürdü, məhz ali məktəbə daxil olmağa çalışırdı. İndi düşüncələr, yanaşmalar nisbətən dəyişib. Ali təhsilə yiyələnmək haqqında çox da fikirləşmirlər. Ancaq gələcək istiqaməti fikirləşsək, əmək bazarına olan tələbata baxsaq, görərik ki, bəzi ali ixtisaslardan daha çox bir sıra peşələrə tələbat daha çox artıb. El arasında bəzən bir söz deyilir, "vaxtında heç olmasa bir peşəyə yiyələnsəydin..." Həqiqətən, bəzən baxırsan ki, bəzi peşələr ali təhsildən daha çox gəlir gətirir.

**E.Ramizoğlu Bərdədəki Peşə Liseyindən də danışdı:**

- Bərdədə Peşə Liseyi yenidən tikilir, həqiqətən möhtəşəm bir bina ərsəyə gəlib. İnanıram ki, peşə təhsilinə kifayət qədər tələbat olacaq. Peşə təhsilinə marağın artması istiqamətində müxtəlif işlər gedir. İşlədiyim məktəbdə peşə təmayüllü siniflərin açılması da nəzərdə tutulub. Fikrimcə, çox doğru istiqamətdir, gələcəkdə öz müsbət nəticəsini verəcək, faydası böyük olacaq. Bizim şagirdlər arasında da peşə təhsilini seçənlər var. Hesab edirəm ki, bi istiqamətdə maarifləndirmə tədbirləri müəllim, şagird, valideynlərin iştirakı ilə aparılmalıdır, məlumat verilməlidir. Hətta şagirdləri peşə məktəblərinə ekskursiyaya aparmaq lazımdır ki, özləri əyani görüb, seçim edə bilsinlər. Bəzən elə şagird olur, həqiqətən təklif edirəm ki, peşə öyrənsin, peşəyə yiyələnsin, çünki bunun onun üçün daha uğurlu olacağına inanıram. Əminəm ki, şagirdlərimiz arasında dövlətimiz, Vətənimiz üçün gərəkli peşə sahibi olan gənclər yetişəcək və ölkəmizə fayda verəcəklər.

**Məlahət Rzayeva**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# “Türkiyəni örnək götürmək lazımdır”



*Şəxsiyyət vəsiqəsi üçün hicabla şəkil çəkdirməyə izin verilməlidir*

Samirə Teymurova adlı xanım ASAN xidmətdə şəxsiyyət vəsiqəsi üçün şəkil çəkdirən zaman ondan hicabını açmağı tələb ediblər. O qeyd edir:

”Etiraz edərkən mənə əsaslı şəkildə cavab vermədilər. Çünki növbə var idi və mənə hüquqi prosedurları izah etməyə kifayət qədər vaxt olmadı. Şəxsiyyət vəsiqəsi önəmli olduğu üçün məcbur qalıb onlarla razılaşmalı oldum. Hicablı xanımın başı açıq şəklinin bir bəy tərəfindən çəkilməsi mənə təsir edir. Bir çox tanışım da şəxsiyyət vəsiqəsi alarkən eyni problemlə üzləşib”. ”Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında” qanununa görə, şəxsiyyət vəsiqəsində Beynəlxalq Mülki Aviasiya Təşkilatının (İCAO) tələblərinə uyğun fotoşəkil yerləşdirilir. ASAN xidmətin rəsmi saytında da fotoşəkillərin bu normalara uyğun çəkildiyi qeyd olunub. İCAO-nun normalarında baş örtüyü ilə şəkil çəkilməsinə icazə verilmir. Normalara əsasən alından çənəyədək üz cizgiləri aydın görünməlidir. **Məsələ ilə bağlı ”Şərq”ə açıqlama verən tanınmış şərqşünas**

"Çünki minlərlə hicablı analarımız vətən üçün qazi və şəhid verdilər. Onlar övladlarının tabutlarını hicabda olarkən qarşıladılar"

**Seyid Camal Əzimbəyli bildirib ki, belə problemlərin yaşanmaması üçün Türkiyəni örnək götürmək lazımdır:** ”Mənim yoldaşım da hicablıdır. Bir neçə gün öncə biz də ASAN xidmətdə olduq. Lakin orada örtük açıq olduqda şəkli çəkməyə xanımlar yaxınlaşır. Dəfələrlə söyləmişik ki, milli-mənəvi dəyərlərimizin həqiqi təəssübkeşi Azərbaycan dövləti və ölkə başçısıdır. Dünyəvi dövlət olsaq da, tolerantlıq, birlik və bərabərlik, insan haqlarının qorunması ilə özünü islam təəssübkeşi sayan ölkələrdən geri qalmırıq, hətta irəlidə gedirik. Səhv etmirəmsə, Milli Məclisdə Azərbaycan Ombudsmanı da bu məsələ ilə bağlı çağırış etmişdi. Amma sanki bu mövzu yarımçıq qalıb. Ortada qardaş Türkiyə nümunəsi var. Türkiyədə hicablı xanımların haqlarının mühafizə olunması baxımından şəxsiyyət vəsiqəsinin hicabla şəkil çəkilməsinə icazə verilir. Hətta hicablı xanımlar gömrük və sərhəd postlarını keçərkən hansısa problem yaşamırlar”.

**S.C.Əzimbəylinin qənaətincə, problem tezliklə həllini tapacaq:** ”Azərbaycan dünyəvi ölkə olsa da, bizdə mənəvi dəyərlərin təəssübkeşliyi önəm daşıyır. Dövlətimiz bu məsələnin üzərinə getməlidir. İnanıram ki, Qarabağın fatehi, Prezidentimiz İlham Əliyev problemin köklü həllinə göstəriş verəcək. Çünki minlərlə hicablı analarımız vətən üçün qazi və şəhid verdilər. Onlar övladlarının tabutlarını hicabda olarkən qarşıladılar. Bunu unutmaq olmaz”. Şərqşünas qeyd edib ki, niqabla hicabı qarışdırmaq olmaz: ”Hicabda olan qadının üzü, gözü və sifəti açıq şəkildə görünür. Buna görə narahat olmağa dəyməz. Müsəlman dövlətlərində problem öz həllini tapıb. Niqabda qadının üzü-gözü bağlıdırsa, başa düşmək olar, bəlkə həmin şəxs terrorçudur. Amma Azərbaycan xanımlarının 99 faizi hicablıdır, niqablı yox. Ona görə də problemin tez zamanda həlli tapılmalıdır”.

**Yeganə Bayramova**



## Açıq havada maska taxılmalıdır

Həkim valideynləri diqqətli olmağa çağırıb

**Qonşu ölkələrdə, o cümlədən Rusiyada və Gürcüstanda koronavirusa yoluxma faktı yenidən artmaqdadır. Üstəgəl, indi də ”Delta” və ”Delta+” ştammı dünya ictimaiyyətinin canına vahimə salıb. Mərhum Bəxtiyar Vahabzadə demiş, hara gedir sabahımız? Görünür, heç də yaxşı yerə getmir...**

**Həkim Fəxranə Hüseynzadənin bu barədə ”Şərq”ə dedikləri də göstərir ki, ”arxı keçmədən” sevinməyə dəyməz:** ”Yoluxmalar yenidən arta bilər. Çünki insanlarımız arxayınlaşıblar. Məhdudiyyətlər tamam unudulub. Qapalı məkanda tibbi maskadan istifadə olunmur. Hərçənd, fikrimcə, açıq havada, xüsusilə sıxlıq olan yerlərdə də masa taxılmalıdır”.

Həkim, həmçinin valideynləri diqqətli olmağa çağırıb: ”Delta” ştammı daha aqressivdir. ”COVİD”dən fərqli olaraq, uşaqlar bu virusa daha tez yoluxur. Odur ki, övladlarımızı qorumalıyıq. Qapalı yerlərdə, o cümlədən mağazada əsla maskasız gəzmək olmaz”.

**Kənan**

## “Xalq yazıqdır, insanları bu günə qoymaq olmaz"

Zəlimxan Məmmədli: “Səhiyyədə idarəetmə sistemi başdan-ayağa dəyişilməlidir”



**Səhiyyə Nazirliyi sanator tibb müəssisələrində keçirilən monitorinqlər barədə məlumat verib.**

Nazirliyin Səhiyyənin təşkili şöbəsinin məsləhətçisi Aynurə Zeynalova monitorinqlər zamanı bir sıra müəssisələrdə ümumi sanitar-gigiyenik qaydalarına tam riayət olunmadığı, həmçinin tibbi sənədləşmənin aparılmasında bəzi nöqsanların aşkar edildiyini deyib. O qeyd edib ki, aşkar olunan nöqsanlarla bağlı müəssisə rəhbərlərinə tövsiyələr verilib:

”Eyni zamanda aparılan monitorinqlərin nəticələri Səhiyyə Nazirliyində təhlil edilərək müvafiq tədbirlər həyata keçiriləcək”.

**Aşkar olunan nöqsanlarla bağlı ”Şərq”ə açıqlama verən ”Borçalı” Cəmiyyətinin sədri, həkim-stomatoloq Zəlimxan Məmmədlinin sözlərinə görə, səhiyyə sistemimiz reanimasiyadadır:**

”Sanki qəza baş verib, səhiyyəmizin qolu, ayağı sınıb və müalicəni hələ bilinməyən səhiyyə naziri, həmçinin TƏBİB edəcək. Bir sözlə, bilinmir ki, mövcud səhiyyəmizin başı və ayağı kimdir?

**İslahat vətəndaşın xeyrinə olan mütərəqqi addımları durmadan həyata keçirmə sənətidir. Sanator tibb müəssisələrində yoxlamalar aparılarkən görəsən, bu yoxlamaların ədalətliliyinə və sağlamlığına zəmanət olan varmı?**

Bəlkə, yoxlamanı aparanın özü ciddi ”xəstəliyə” yoluxub? Çünki çox vaxt özləri rüşvət və korrupsiya arxasınca gedirlər.

Hazırda özüm də klinikaların birində çalışıram. Vətəndaşlara baxıb düşünürəm ki, Azərbaycan xalqı yazıqdır, insanları bu günə qoymaq olmaz.

Səhiyyədə idarəetmə sistemi başdan-ayağa dəyişilməlidir. Bütün sahələrdə idarəetmə sisteminin modernləşməsi və hər yerdə xalqın saf nümayəndəsi səlahiyyətli olmalıdır.

O zaman belə nöqsanlar olmayacaq. Səhiyyəmizdəki bu iyrənclikləri yaradan zehniyyətsiz və reanimasiyada olan təbəqədir”.

**Yeganə Bayramova**

# “Ciddi dəyişikliklərə ehtiyac var”

*Universitetlərdə bazarın tələblərinə uyğun kadr hazırlanmır*



Son günlər müzakirə olunan əsas məsələlərdən biri ali təhsil müddəti ilə bağlıdır. Belə ki, universitetlərin bakalavr pilləsində təhsilin üç il, magistratura pilləsində isə bir il olması nəzərdə tutulur.

**Təhsil eksperti Kamran Əsədov ”Şərq”ə açıqlamasında məsələyə belə münasibət bildirib:** ”İlk növbədə qeyd edim ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra, ”Təhsil haqqında” qanunun qəbulu çox gecikdi, yəni 2009-cu ildə qəbul olundu. Bu, ”Ümumi təhsil haqqında” qanun idi. Amma təhsilin müxtəlif pillələri haqqında ayrıca qanun layihəsinə ciddi ehtiyac var idi. Bunlara ”Məktəbəqədər təhsil haqqında” qanun, ”Peşə təhsili haqqında” qanun və yekunda ”Ali təhsil haqqında” qanun aiddir. Əvvəl qeyd etdiyimiz pillələr haqqında qanun layihəsi qəbul edildi. ”Ali təhsil haqqında” qanuna da çox ciddi ehtiyac var. Ali təhsilin idarə olunması, vəzifələri, hüquqları və s. - bunlar hamısı ümumi əsasda qanunvericilikdə göstərilib. Eyni zamanda, idarəetməsinin demokratikliyindən tutmuş, prinsipial məsələlərdə belə çox ciddi boşluqlar var. Təhsil sənədlərinin verilməsi, təhsil sənədlərinin müddəti kimi məsələləri bu qanun tənzimləməlidir. Ona görə ki, vahid qanunvericilik yoxdur və hər biri ayrıca fəaliyyət göstərir. Məhz ona görədir ki, Azərbaycan universitetləri dünya reytinqində yoxdur. Onların maddi-texniki bazası dövrün tələblərinə cavab vermir. Konkret rəqəmlərə baxaq: bu gün ölkəmizdə 164 min tələbə təhsil alır, 4 ildən sonra onların yalnız 42 faizi işlə təmin oluna bilir. Qalanlar isə qeyri-ixtisas sahələrində işləyirlər və yaxud da işsiz qalırlar. Çünki onlar istehsalatın və ya əmək bazarının tələblərinə uyğun kadr hazırlaya bilmirlər”. **K.Əsədovun sözlərinə görə, ciddi dəyişikliklərə ehtiyac var:**

”Bizdə bəzi ixtisaslar ”ölü”dür. Elə kafedralar var ki, mənasız yerə bölüşdürüblər. Belə hallar bütün universitetlərdə var. Təsəvvür edin ki, dünya artıq nanotexnologiyaya keçib. Biz hələ yarımkeçiricilərdən danışırıq. Universitetlər bu əlavə, mənasız fakültələrlə, ixtisaslarla öz xərclərini artırırlar. Düşünün ki, universitetlərdə iki tarix kafedrası var. Biri təbiət, biri humanitar ixtisaslar üzrə. Bu nəyə lazımdır axı? Ona görə də bu qanuna çox ehtiyac var. Ali məktəblər hazırladıqları kadrların əmək bazarında onlara ehtiyac olub-olmadığı bilmədiridlər. Çox uzağa getmədən belə bir misal gətirim: Türkiyədə 3 qurum yanaşıdır. Yəni Əmək və Sosial Müdafiə Nazirliyi, Təhsil Nazirliyi və universitet. Sosial Müdafiə Nazirliyi sifariş verir ki, konkret bilik və bacarıqlara malik kadr yetişdir. Təhsil Nazirliyi də bunun planını hazırlayır və universitetlərə göndərir ki, siz buna uyğun kadr hazırlaya bilərsiz, ya yox? Hansı universitet bu kadrları hazırlaya bilirsə, dövlət plan yerlərini onlara ayırır. Bizdə isə bütün universitetlər eyni ixtisaslardan kadr hazırlayırlar. Universitetin istiqamətinə uyğun olmasa da, kadr hazırlanır. Buna nə ehtiyac var? ”Hazırlamaq” deyəndə ki, qəbul aparırlar, amma hazırlaya bilmirlər. Ona görə də öncə əmək bazarı dəyərləndirilməlidir. Daha sonra ehtiyac olan sahələr üzrə kadr yetişdirilməlidir. Qanunda nəzərdə tutulmalı ən vacib məsələlərdən biri odur ki, universitetlərin istehsalata inteqrasiyası olsun”.

**Kənan Novruzov**

# Şair haqqında şeirsayağı düşüncələr



İftixar Piriyev

Bir şair haqqında söz açmaq və onun şeirlərini təhlil etmək, həm bir şair təbi qədər coşmağa, həm də, bir şeirə çevrilməyə bərabər xoşbəxtlikdir. Mən bu coşquya və xoşbəxtliyə qovuşmaq üçün bütün hisslərimlə və duyğularımla ürəyimə yol tapan bir şairin şeirləri ilə bir müddət, bir oxucu kimi başbaşa qaldım:

**"Adını göyərdən dilim,**
**Qadını kövrəldən dilim...**
**Sevgini öyrədən dilim -**
**Hələ də deyirlər laldı..."**

poetik düşüncələri nəzərdən keçirdikdən sonra,

**"Ayıra bilmədən dizini yerdən,**
**Gözlərim dənləyir izini yerdən.**
**Qaldıra bilsəydim gözümü yerdən,**
**Gəzərdim, o gənclik vaxtdakı məni..."**

Xatirələr küncündən gözlərimə tuşlanmış baxışlarla üz-üzə dayandım.

**... "Gecəm şamdı - əriyir,**
**Bələnirəm tüstümə...**
**Sol gözüm çox səyriyir,**
**Əyilib qoy üstünə -**
**Gözünü!".**

**Dan üzünün ayazı -**
**Sakini otağımın...**
**Toxundur ki, isinim -**
**Əlinin, dodağının -**
**Közünü!**

**Bax, bənövşə şehidi**
**Kirpiyimdəki nəm də...**
**Xəyalımın sehridi -**
**Görmək şəklini, həm də -**
**Özünü!**

lirik, romantik duyğuların kəhkəşanına vardım.

**Sevincində, qəmində**
**Kirpiyinin nəmində...**
**Hansısa bir dəmində -**
**Varammı?**

**Gülüşündə, nazında**
**Onun çox, ya azında...**
**Sənin alın yazında -**
**Varammı?**

fəlsəfi, psixoloji oqat yaradan əhvala kökləndim. Və xeyli müddətdən sonra şairin şeirlərinə bir də şair nəzərləri ilə baxmağa başladım və bu nəzərlər məni şairin poeziyası haqqında danışmağa vadar etdi.

Şairin şeirlərini hər dəfə həm sosial şəbəkələrdən, həm də qəzet səhifələrindən oxuduqca, şeirlərin hansı təbdən doğulduğunu və hansı mövzularla oxucu qəlbinə yol tapdığını həssas şəkildə müşayiət edirdim. Həm öz ruhuma təsir qüvvəsi, sözün və sözdəki lirik, romantik, psixoloji və fəlsəfi hikmətlə əhvalımda yaratdığı ovqat barədə düşünür, həm də digər oxucuların könlünü hansı poetik ilhamla özünə yuva etdiyini bütün hisslərim və duyğularımla dərk etməyə çalışırdım. Təsəvvür edin, şeirin həm bədii-poetik səciyyəsi, həm fəlsəfi-estetik məcmuəsi, həm məzmun və mövzu genişliyi, həm zəngin söz ehtiyatı ilə cilalanan bənzərsiz özünəməxsusluğu və həm də, sözlərin alletriasiyası və simfonik musiqiyə bənzər ahəngdarlığı ürəyaçan və könüloxşayan bir nəğmə kimi ruha rahatlıq gətirir:

**"...Özümə özüm qədər**
**Yoxdur, yaşadan kədər!**
**Soruşmuram ki, hədər -**
**Varammı?**

**Dünyamdakı ataş, nur,**
**Bir azacıq yaxın dur!..**
**Əlini üzümə vur -**
**Varammı?.."**

Önəmli olan odur ki, şairin bütün həyatı boyu sakit, təmkinli, könlündə və qəlbində sükuta daha çox yer ayıran təbiəti, az sözlə böyük fikirlər ifadə etmək cəhdi şeirlərinin canına və qanına hopmuş halda oxucuya sövq-təbii rahatlıq gətirir və onu öz ovqatı ilə tilsimləyir:

**"Səndə çəmən, məndə örən**
**Kimdi məni məndə görən?**
**Görəcəmmi mən də, görən -**
**Görmək istədiyim günü?!"**

Şairin bu xüsusiyyəti bütün şeirlərinin "xasiyyətinə" və "xarakterinə" həzinlik, rəvan bir ahəngdarlıq, eyni zamanda, mövzuların, fərqli olsalar belə, bütün hallarda bütövlük və yetkinlik, lokaniklik və konkretlik, həm də yüksək bədii ifadəsi ilə ürək çalan, ürək alan, bir başa ruha siraət edən həssasiyyəti ilə seçilir:

**"Yaşayıram... yaşamaqsa əgər bu -**
**Mən anlara bölə-bölə ömrümü...**
**Həsrətinlə savaşdayam, günlərlə -**
**Paylaşıram, belə-belə ömrümü...**

**Bürünübdü taleyimdə gün "ah"a**
**Bilirəm ki, çox batmışam günaha!**
**Sənin üçün əl açaraq Allaha -**
**Nəzir dedim gülə-gülə ömrümü!.."**

Haqqında söz açdığımız, könlü məlhəmlə dolu olan şair qardaşım Əbülfət Mədətoğlu hələ körpəliyindən Qarabağımızın ən dilbər guşələrindən olan Tuğ kəndinin bulaqlarından içdiyi suyun, dağlarından və meşələrinin füsünkar təbiətindən aldığı bədii kamilliyin yükü və çəkisi ilə ağır, ləngəri böyük olan bir şair ömrünü öz həzin və dərin şeirləri ilə oxucusuna məcun kimi təqdim edir. Ürəyəyatımlı şeirləri ilə oxucusu qarşısına çıxdıqca şair, hər dəfə sanki imtahan verirmiş kimi dərin məhəbbətlə oxucusunun fikirlərinə ehtiram göstərir. Təbii ki, bu ehtirama görə Əbülfət Mədətoğlunun şeirləri hər dəfə onu oxucusuna bir ayrı məhəbbətlə sevdirir. Oxucunun sevgisi, şairin uca Yaradana həsr etdiyi, ona olan eşqininin tərənnümünə çevrilən "...ancaq O" şeirində daha parlaq şəkildə sezilir, çünki belə bir poeziya nümunəsi bir oxucu kimi mənim də könlümü həssas şəkildə fəth etmişdir:

**... "Ocağım, odum, közüm**
**İlk, həm də ki, son sözüm...**
**Məni yaşadan dözüm -**
**ancaq O!"**

yaxud,

**"Haqqın yerdə zərrəsi**
**Ruhun şehli - tər səsi!**
**Ürəyimin pərdəsi -**
**ancaq O!"**

Allahı ürəyinin pərdəsi kimi incə, məhrəm duyğularla tanıyan, dərk edən şairin təxəyyül arealının geniş arenası bizi bu böyük ürək sahibinə qəlbən bağlayır. Və şairin xoşbəxtliyi də məhz ondadır ki, o, oxucu ürəyinə bənd-bənd hakim kəsilir, məhz bu amil ona oxucu sevgisini, şeirdən şeirə, ildırım sürəti ilə qazandırır. İllah da, könlü Vətən sevgisi ilə alovlanan şeirlərində şair daha böyük yanğı ilə diqqət çəkir. Bu xüsusda, "Sən də..." şeirində Vətənə olan sərhədsiz sevginin içində daim alovlanan və yağı düşmənin xarabazara çevirdiyi yurd yerlərimizin ağrı-acısının gətirdiyi dərd üstünə dərd qalayan ovqatını öz yanğısı ilə ürəyimizə hədəfləyir:

**"Korun-korun, öz odumda yanırdım,**
**Öz odumu tək özümün sanırdım...**
**Qibləm! - deyib, Qarabağı anırdım -**
**Sən də gəlib duz çilədin yarama..."**

Ancaq şairin "Vətən səsləyir" şeiri bizi tamam başqa ovqata kökləyir. Qələbə, zəfər ruhu ilə könlümüzü ilhamla qanadlandırır:

**"Atlanmış Ağatlıdı,**
**Qaranlığı yarır O!**
**Yeldən də qanadlıdı -**
**Şuşamıza varır O!"**

Bu şeirdəki əhval, zəfər qələbəmizin müjdəsini gətirirmiş kimi oxucu könlünün bütün yanğılarını söndürür və oxucunun ürəyinə təskinlik məlhəmi səpir.

Otuz il doğma Qarabağa, onun ən dilbər guşələrindən olan gözəllər gözəli Tuğ kəndinə bütün varlığı və ruhu ilə həsrət çırağının közərən işığından boylanan, daim həsrətlə od tutub yanan Əbülfət Mədətoğlu qələbə sevincini öz poetik duyğuları ilə "Bu günü" şeirində belə hayqırır:

**"İllə, ayla gözlədim**
**Günlə, sayla gözlədim...**
**Qışla, yayla gözlədim -**
**Bu günü!**

**Dərd-ələmlə gözlədim,**
**Vaxt - sələmlə gözlədin...**
**Mərd qələmlə gözlədim -**
**Bu günü!**

**Para yurdla gözlədim,**
**Son umudla gözlədim!**
**Bir Boz Qurdla gözlədim -**
**Bu günü!"...**

Göründüyü kimi, başqa şairlərimiz qədər Əbülfət Mədətoğlu üçün də Vətən mövzusu bütün mövzuların fövqünə yüksəlir. Otuz il hər gün gözləri önündə bir xəyal olaraq Tuğdakı od tutub yanan kənd evinin ilğım mənzərəsinin tablosundakı cərəyan edən ürəkyaxıcı yanğı ilə yaşayan, acılarla dolu dərd daşıyan Əbülfət Mədədoğlu Vətən haqqında yanğısız və sızqısız danışa bilmir. İllah da, dediyimiz kimi, göz və qan yaddaşının bir guşəsində daim od tutub yanan, yandıqca inləyən, sızlayan ata evinin alovunu gözləri ilə seyr etmiş bir şair üçün bu dərd ən ağır yüklə dolu, nüvə partlayışı qədər çılğın bir dərddir. Məhz ona görə də Əbülfət müəllimin şeirlərində bu mövzu çox ağrılı şəkildə doğulur. Bu ağrılarla yaşayan şair üçün Vətən uğrunda şəhid gedən doğmalarımızın taleyi, onun şeirlərində öz təcəssümünü ürəkparçalayan şəkildə, ən ağrılı formada tapır. Təkcə şəhid ovladlarımızın deyil, onları döyüşə uğurlayan və şəhidlik zirvəsinə qalxdıqlarını yalnız göz yaşları ilə təsəlliyə çevirən qəhrəman analarımızın da ağrı-acılarını şair öz kövrək duyğuları və ürək yanğısı ilə nəzmə çəkir. "Şəhid anası" şeirində olduğu kimi:

**"Yuxusu pərən düşüb,**
**Fikirləri yumaqdı...**
**İşi göz yaşı ilə -**
**Çöhrəsini yumaqdı -**
**Şəhid anasının..."...**

Övlad itkisi qədər can yandıran daha dəhşətli bir alov ola bilməz. Bir xalq, bir millət üçün Vətən itkisi nə deməkdirsə, bir ana üçün də övlad itkisi məhz eyni mahiyyətə malikdir. Dərdi, dərddən daha əsvəl sandığı Vətən məfhumuna qurban verən Şəhid anasının dözüm duyğularını "göz yaşı ilə - çöhrəsini yumaq..."la təskinlik zirvəsinə yüksəldən Mədətoğlu, Azərbaycan anasının monumental obrazını ədəbi mühitin fövqünə yüksəldir və onu poetik tabloya çevirir. "Torpaq" şeiri ilə isə şair, bir başqa poetik tablo rəsm edir və bu poetik tabloda torpaq eşqi, torpaq ehtirası - torpağa ümummilli sevginin təzahürünə çevrilir. "Torpaq uğrunda ölən varsa, Vətəndir" fəlsəfəsi, Mədətoğlunun "Bax, elə bu yolla özünə dönür - Şəhid qanı ilə suvarılmış torpaq!" poetik təcəssümündə özünü tam şəkildə isbat edir:

**"Od kimidi torpaq -**
**xışmalasam**
**ovcum yanacaq...**
**Və sonra da**
**barmaqlarımın**
**ucundan**
**pardaxlanmış**
**qan damacaq....**

**Od kimidi torpaq -**
**əl uzadıb,**
**üz sürtüb,**
**öpməzdən öncə**
**özün də bax -**
**gör necə titrəyir, əsir...**

**Ürək -**
**sanki, yarpaqdı, yarpaq...**
**Bax, elə**
**bu yolla**
**özünə dönür -**
**Şəhid qanı ilə**
**suvarılmış torpaq!".**

Bu cür yüksək bədii keyfiyyətə malik könül oxşayan şeirləri ilə baş-başa qaldıqca, şairin poeziyasına dalıb gedirsən və ayrılmaq istəmirsən...



Əlbəttə ki, Əbülfət müəllimin şeirləri və yaradıcılığının digər tərəfləri haqqında çox geniş və əhatəli söhbət açmaq mümkündür. Onun çoxşaxəli yaradıcılıq arealı buna imkan verir. Mən sadəcə, nə zamandır içimdə boy vermiş və vərəqlər üzərinə tökülməyə tələsən duyğularımı, hisslərimi şeirsayağı şəkildə ifadə etməyə çalışdım və hesab edirəm ki, bu kiçik yazı ilə yalnız şair dostumun yaradıcılığının tək bir cəhətinə ekskurs etdim, şeirlərinin bəzi nümunələri ilə dərdləşdim, söhbətləşdim və bəzi yarpaqları haqqında düşüncələrimi əziz oxucularla bölüşdüm. Oxuduqca gördüm ki, Əbülfət müəllimin şeirləri dərin bir ümmandır və o ümmana baş vurmağına dəyər. Əziz oxucu, sizləri də o ümmana baş vurmağa dəvət edirəm. O ümmanda çox mətləblərin şahidi olacaqsınız, görəcəksiniz ki, vətənpərvər ruhu, sakit təbiəti, zəngin poetik təxəyyülü, dostcanlığı, istiqanlılığı, sözübütövlüyü və məhz bu kimi insana xas olan mühüm cəhətləri ilə şair cəmiyyətdə öz sanballı yerini tutmuş və rəğbət qazanmış bir sənətkardır.

Bu kiçik yazı ilə qələm dostum, tanınmış şair Əbülfət Mədətoğlunu əziz oxucu ilə mənim baxış bucağımda görüşə gətirdiyimdən məmnunluq hissi keçirir, demək istəyirəm ki, Əbülfət Mədətoğlu məhz həm sadalanan xüsusiyyətləri, həm də yazdığı poetik lövhələriinin məzmunu, fikir tutumunun səviyyəsi, poetik səciyyəsi və ümumən yaradıcılıq kredosu ilə öz sanballı obrazını yarada bilmişdir. Bu obraz Azərbaycan şairinin mükəmməl obrazıdır.

*Əziz şair qardaşım, gün o gün olsun ki, səninlə Tuğda, illərdir həsrətini çəkdiyin ata evində görüşmək nəsibimiz olsun! Vətən eşqi ilə alovlanan şeirlərini, öz dilindən məhz ata evinin ocağı başında eşidək! Artıq müzəffər ordumuz bu həsrətə son qoymaq üçün bizə Zəfər qələbəsi nəsib etmişdir. O gün çox yaxındadır! Tuğ üçün çırpınan, Azərbaycan sevdası ilə döyünən şair ürəyinə eşq olsun!*

# "Pul verib xaricdə yaşayan blogerlərə bizi söydürürlər"

*Müğənni Daxili İşlər Nazirliyindən kömək umur*



"Daxili İşlər Nazirliyinə, nazir Vilayət Eyvazova müraciət edirəm. Biz müğənniləri xaricdə yaşayan blogerlərə söydürən xanımı araşdırın. Görün kimlərə pul yardımları edib və kimlərlə əlaqədədir. Özü və ailə üzvləri araşdırılsın. Boğaza yığılmışıq. Bizdən də pul tələb olunur. Vermədikdə şantaj edəcəklərini söyləyirlər".

"Şərq" xəbər verir ki, bu sözləri instaqram profilində paylaşdığı videoda müğənni Afət Fərmanqızı söyləyib. A.Fərmanqızı ad çəkmədən bunları deyib: "Məsələn, Manaf Ağayevlə həmin xanım düşmən idi. Mən Manafla küsülü olanda ona sərf edirdi. Biz barışan günü məni söydürdü. Yenə də bilməzliyə vurdum. Fikirləşdim ki, söyülənlərdən artıq deyiləm. Bu dövləti kim istəyirsə, onları söyürlər. Sonra o xanıma zəng elədim ki, Manafa görə təhqir olundum. Ondan söz alırdım.

Qayıtdı ki, sənə lazım idi Manafla barışmaq? Həmin an tutdum ki, düz yoldayam. Yaxın günlərdə xaricdə bizi söyənlərdən birinin oğluna pul veriblər. Məndə olan məlumatdır. Bunu araşdırıb tapmaq asandır. O xanım bu gün məni söydürür. Adıma pis-pis sözlər dedizdirir, ləzzət alır. Ona görə ki, çəkilişdə süfrəmin başında Manaf Ağayev oturub. Düşünmə ki, biz bilmirik. Mənə o, nə deyəcək ki? Bir qadına nə deyə bilər? Məsələn, ona deyir ki, söylə Afəti filan qiymətə filan yerə çağırmışam.

Bu adamın tərzi belədir. Yanımda bir xanım sənətçini söydürüb Sankt-Peterburqdan onlara pul göndərib. Mən şahidəm. İndi sual verirəm, ay xanım, sən niyə söyülmürsən? Əziyyət çəkib, ən ucuz qiymətə toylara gedib, xalqın şad günündə yanında olmuşam. Razıyam, hamımız söyülək. Necə olur ki, rəfiqənin ərini əlindən almısan.

Söyülmürsən. Mən isə belə etməmişəm. Bizi təhqir etdirən sənsən. Bilirik. Maşın sürə bilmirik. Həmin dəqiqə videomuzu xaricdəkilərə göndərir, söydürür. Sankt-Peterburqda ərinin maşın salonları var. Onların vasitəsilə həmin adamlara pul göndərir. Flora Kərimovadan danışmıram. O, şəxsiyyətli insandır. Mərd kimi düşmənçilik edir. Açıb sandığı, tökəcəm pambığı. Hamısının adı ilə deyəcəm. Bir də insanları çaşdırırlar ki, pandemiya dövründə öz yardımımdan sonra "Kamaz"larla yardımı adıma çıxmışam. Xeyir. Kömək edənlərin adını demişəm".

Sosial şəbəkə istifadəçiləri həmin xanım müğənninin Nazənin Salayeva olduğunu düşünüblər.





## "Əxlaqsız qadına da ana deyim?"

Hüseyn Məhəmmədoğlu Şəbnəm Tovuzlunun sözünü kəsib

**Müğənni Şəbnəm Tovuzlu "Həmin Zaur" proqramında qonaq olub. O, ailə həyatından danışıb.**

"Şərq" xəbər verir ki, müğənni sözügedən verilişdə bunları deyib: "Neçə ildir evliyəm. Mənim ailəmdə əl qaldırmaq olmayıb. Təhqiramiz söz də işlədilməyib. Hacı əsəbiləşib, amma əl qaldırmayıb. Xanımlar da başa düşməlidirlər. Qadın da bir anadır. Ona niyə əl qaldırasan?". Bu zaman klarnet ifaçısı Hüseyn Məhəmmədoğlu müğənninin fikirlərinə "Mən indi hansısa əxlaqsız qadına da ana deyim?" deyərək etiraz edib. Ş.Tovuzlu isə ona belə cavab verib: "Bilirəm ki, Hüseyn ailədə sözünü deyə biləcək bir oğlandır. Amma qadın doğulandan anadır, bacıdır. Onu həyat başqa cür edə bilər".

**Samirə**

## Zaur mükafat vəd etdi

"Nuranənin yerini deyənə 1000 manat verəcəm"



**Aparıcı Zaur Baxşəliyev "Ər evindən qaçıb, ailə qurmuşam" deyən Nuranəni görənlərə mükafat verəcəyini açıqlayıb.**

"Şərq"in məlumatına görə, o, aparıcısı olduğu verilişdə bu barədə danışıb: "Nuranə, bəlkə də nənənin burda, atanın orda üzülməsindən, hamını qarşı-qarşıya qoymağından zövq alırsan.

Belə xəstə təfəkkürdə olma. Mən nə lazımdırsa, kömək etməyə hazıram. Nuranəni görənlərə, ondan xəbər gətirənlərə düz 1000 manat pul verəcəm.

Onun yerini bizə bildirən 1000 AZN alacaq. Adı da məxfi qalacaq. Lakin onu evində saxlayan adamların aqibəti yaxşı olmayacaq".

*Qeyd edək ki, Nuranə adlı xanım 16 yaşında özündən 15 yaş böyük bir bəylə zorla evləndirilib. Evdən qaçan 19 yaşlı Nuranəni nənəsi tapmaq üçün "Bizimləsən" proqramına müraciət edib.*

**Samirə**

## "...Onlardan çox uzağam"

Qohumları aparıcının arxasınca danışır



**Aparıcı Zümrüd Bədəlova instaqramda izləyicilərinin suallarını cavablandırıb.**

"Şərq" xəbər verir ki, o, bir sosial şəbəkə istifadəçisinin "İnsan öz qohumlarından soyuyur. Sizdə də olur belə" sualına bu sözləri yazıb: "Sizin zonanıza daxil olmaqlarına izn verməyin. Qohumlardan çox uzağam. Səbəbləri çoxdur. Bu günə kimi arxamca danışan, görəndə boynuma sarılan, məni qınayan, amma yerimdə olmaq istəyən, hər yerdə pisləyib, lakin mənimlə fəxr edən qohumlarımdır. Bəzilərini çıxmaq şərtilə..."

**Samirə**

# "Bəzən sevgi deyil, qürur lazımdır"

*Günay İbrahimli: "Kişinin daxili önəmlidir. Xarici nə qədər gözəl olsa da, danışanda xasiyyəti 1 qəpiklik deyilsə, adamın gözünə görünmür"*



"Musiqi zövqləri dəyişib. Pop musiqi artıq dinlənilmir. İndi rep, yaxud da iki janrın qarışığı və sair mahnılara qulaq asırlar. Musiqi növləri var ki, onlar bir müddət gündəmdə olur. Yenidən başqa bir janra keçir. Mən də sırf estrada ifa edirəm. Gedişatdan görürəm ki, repertuarımda ifa etmədiyim bir tərzə yer verəcəm".

**"Şərq"in məlumatına görə, bunları "MTV Azərbaycan"a açıqlamasında müğənni Günay İbrahimli söyləyib. O, geyim tərzindən də söz açıb:** "İllər ərzində stilistlərlə işləyib zövqümü püxtələşdirmişəm. Bilirəm ki, nə yaraşar, nə yaraşmaz. Məsləhətə də qulaq asıram. Şou-biznesdə zövqsüz geyinənlər var.

Xətirlərinə dəymək istəmirəm. Amma çox iyrənc görünürlər. Zövqlü geyinənlər də olur. Zövqsüzlər də çoxdur. Söyləsəm də onu başa sala bilməyəcəm. Məncə, Zülfiyyə Xanbabayeva, Aygün Kazımova, Zamiq Hüseynov, Çingiz Mustafayev, Ədalət Şükürov, Nura Suri zövqlü geyinir". İfaçı həyatında bir dəfə sevdiyini xüsusi vurğulayıb: "Depressiyaya düşmüşəm, lakin bir gün. Həftələrlə, günlərlə, depressiyada qalmıram. Gün pis başlayır, onun ab-havasından çıxa bilmirəm. Səhəri gün yaxşı oluram. Özözümü toparlayıram. Ömrümdə bir dəfə sevmişəm. Bəzən sevgi deyil, qürur lazımdır. Mənim üçün kişinin daxili önəmlidir. Xarici nə qədər gözəl olsa da, danışanda xasiyyəti 1 qəpiklik deyilsə, adamın gözünə görünmür.

Daxili gözəlliyə fikir verirəm. Sonra da hündür boy olmalıdır".

**Samirə**



## "Milçək uçsa, eşidilər"

Nazilə Səfərli: "Musiqi duyumu olan insanların qarşısında çıxış edirik"

**Şairə Nazilə Səfərli "Hüseynova bacıları" proqramındakı açıqlamaları ilə diqqət çəkib.**

"Şərq" xəbər verir ki, o, sözügedən verilişdə bunları söyləyib:

"Adını çəkə bilmədiyimiz qapalı məclislərdə çox oluruq.

Həmin məclisləri sənətkarların çoxu xəyal belə edə bilməz. Burada söhbət puldan, nüfuzdan, rütbədən getmir. Musiqi duyumu olan insanların qarşısında çıxış edirik. Milçək uçsa, eşidilər.

Orada yalnız şeir deyib, mahnı oxumursan, imtahandan keçirsən. Oxuduğuna görə qonorar alırsan. Bəhs etdiyim məclislərdə gözəlliyə, bədən quruluşuna önəm verilmir. Sırf sənətkar dinləmək istəyirlər. O məclislərdə iştirak edən sənətçilərin bir sanbal titulu var".

**Samirə**

# Korona faciəsi dəhşət saçır

## *Qanq çayına atılmış cəsədlər yenə sahilə çıxır*

*(Əvvəli səh: 15-da)*



Musson yağışları isə 1.550 mil uzunluğundakı su yolunda axıntıların güclənməsinə və sahildə dəfn edilmiş cəsədlərin üzə çıxmasına səbəb olur. Ötən ay eyni mənzərə Bihar əyalətində yaşanmışdı.

Rəsmilər Uttardan aşağı "üzən" cəsədlərin koronavirusdan vəfat etmiş xəstələrə aid olduğunu bildiririrdilər. Hindlilərin müqəddəs şəhərlərindən biri - Allahabadda son 4 həftədə 150 cəsəd yandırılıb. Hindlilərin dəfn adət-ənənələri də virusun yayılmasına daha artıq yol açır. Hindlilər ölmüş doğmalarını yandıra bilməyib cəsədləri Qanq çayına təslim etdikləri zaman belə, yüzlərlə insan mərasimə tamaşa etmək üçün çayın sahilinə toplaşır. Rəsmi məlumatlarda Qanq sahili boyunca 600-ə qədər cəsəd gömüldüyü bildirilir. Yerli sakinlər sahilin cəsədlərdən təmizlənməyəcəyi təqdirdə

Qanq çayının dünyanın ən çirkli su hövzəsi halına gələcəyini söyləyir. Bu vəziyyət daha da təhlükəli yoluxucu xəstəliklərin yayılmasına səbəb ola bilər. Hazırda Hindistan polisi və fövqəladə hallar əməkdaşları həm sahildə, həm də çayda cəsədlərin toplanmasıyla məşğuldur.

**Məlahət**

## Sahil qan gölünə döndü

175 balinanın qanlar içində can verməsini sakitcə izlədilər

*(Əvvəli səh: 15-da)*





**Bir qisim qanlı festivalı pisləyir, bir qisim isə balinaların balıqçıların gəlir mənbəyi olmasını əsas gətirərək haqq qazandırmağa çalışır. Lakin gəlir əldə etmək naminə bu qədər balinanı qətlə yetirmək və soyuqqanlı bir şəkildə ölmələrinə tamaşa etməyə heç nə haqq qazandıra bilməz.**

Qanlı festival son 10 ildə 6 min 500-dən artıq balina və delfinin ölümünə səbəb olub. Günlərlə davam edən qətliamın ardından hər kəs heç nə olmamış kimi həyatına davam edir. Qanlı festivalın ləğvi üçün ictimai təşkilatlar imzatoplama kampaniyası keçirir. Bəzi mütəxəssislər bu qədər balina ovuna heç bir ehtiyac olmadığını, ada sakinlərinin məişətində balina ətinin artıq keçmişdəki kimi xüsusi yer tutmadığını, bu "adəti" keçmişin qanlı nişanəsi adlandırırlar.

*Qeyd edək ki, Farer adaları Atlantik okeanının şimal hissəsində Şotlandiya ilə İslandiya arasında yerləşən adalar qrupudur. Və Danimarka krallığına daxildir. Lakin 1948-ci ildən demək olar, müstəqil idarəetməyə malikdirlər. Belə qətliamlara soyuqqanlı yanaşan dünyadan biz hələ ədalət də gözləyirik.*

**Məlahət**



## Gündə ən azı 2 saat rəqs edir

Afra bu yolla formada qalır

**"Yeşilçam" serialında rol alan aktrisa Afra Saraçoğlu qüsursuz bədən formasının sirrini açıb.**

**Aktrisa mütəmadi idman etdiyini deyib:** "Gündə ən az 2 saat rəqs edirəm. Xəmir yeməklərindən uzaq dururam. Tərəvəzlər yeyirəm".

## Fahriyə Barışla tərəf müqabili olacaq?



**Yeni mövsümdə yayımlanması planlaşdırılan "Alparslan" serialının baş rol aktyorları məlum olub. Ekran işində Barış Arduçun tərəf müqabilinin Fahriyə Evcen olacağı deyilir.**

İddiaların yaranmasına səbəb isə serialı hazırlayan şirkətin sahibi Emre Konukun sosial şəbəkədə aktrisanı izləməsi olub.(Axşam.az)

## Şəhər poliklinikaları iki hissəyə bölünəcək



**Şəhər poliklinikaları iki hissəyə bölünəcək. İlkin səhiyyə xidməti göstərənlər bir poliklinikada, dar ixtisas sahibləri isə digərində cəmləşəcək.**

Trend-in məlumatına görə, bunu Kliniki Tibbi Mərkəzin direktoru Könül Ələkbərov deyib. Onun sözlərinə görə, burada əsas məsələ sahə prinsipinə əməl olunmasıdır. Belə ki, sahə pediatrları, terapevtlər və digərlərinə əlçatanlığın təmin olunması üçün onlar inzibati ərazi üzrə bərabər bölüşdürüləcək:

"Ailə Sağlamlıq Mərkəzi olmağa uyğun olmayan poliklinikalarda isə dar ixtisas sahibləri birləşəcək və öz rayonları üzrə tibb mərkəzlərinə tabe olacaqlar. O cümlədən Səbail, Yasamal və Nəsimi rayonlarının ərazisində yerləşən poliklinikaların dar ixtisas həkimləri Kliniki Tibbi Mərkəzə tabe ediləcək".

## "Bakcell"dən 099 prefiksi ilə "xüsusi" və "eksklüziv" nömrələr

Bakcell "099" prefiksi ilə başlayan "xüsusi" və "eksklüziv" nömrələri istifadəyə verib. Məhdud sayda buraxılan bu nömrələr abunəçilərə "Klass 25" və "Klass 50" tarifləri ilə təklif olunur.




İstifadəçilərini özəlliyi ilə fərqləndirəcək və yeni hədəflərə doğru addımlamağa kömək edəcək 099 prefiksli yeni nömrələr bu gündən etibarən satışdadır. Müştərilər arzuladıqları nömrəni nomre.bakcell.com səhifəsi vasitəsilə rezervasiya edə və ya "Bakcell"in istənilən müştəri xidməti mərkəzi və diler mağazasından ala bilərlər.

Qeyd edək ki, Bakcell yeni "099" mobil prefiksini ötən ilin əvvəlində təqdim edib. Yeni prefiks abunəçilərə xüsusi və fərdi nömrələr əldə etmək üçün daha geniş imkanlar verir.

"Abunəçilərimiz yeni 099 prefiksimizə böyük maraq göstərib. Buna görə də biz onlara fərqlənmək və ən üstün müştəri təcrübəsindən yararlanmaq üçün 099 prefiksli eksklüziv nömrə almaq imkanı yaratmışıq. Bu nömrələri beynəlxalq səviyyədə 3 il ardıcıl olaraq "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" adını qazanmış Bakcell şəbəkəsində istifadə etmək isə əlavə üstünlüklər qazandırır", deyə "Bakcell"in baş icraçı direktoru Rainer Ratgeber bildirib. Daha ətraflı məlumat üçün https://www.bakcell.com/az/099-prefix-exclusive-special səhifəsinə daxil olun.

*Bakcell xidmət və şəbəkə keyfiyyətini müntəzəm qaydada təkmilləşdirməklə abunəçilərini ən üstün müştəri təcrübəsi ilə təmin etməyə davam edəcək.*

**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

-**Dizayn** (3-6ay)

-**Masaj** (3 ay)

-**Biçmə - Tikiş** (3 ay)

-**Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**

Baş redaktor: **Akif Aşırlı**
Baş redaktorun ı müavini: **Yusif Nəzərli**
Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şeymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı
**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535
**www.sherg.az**
e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı.
**Telefon:** 447-32-41
538-44-50, internet 538-44-15,
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111
Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1178



# Təyyarə bir sərnişinlə havaya qalxdı

## Stüardessa xanımlar da təəccübləniblər

**Rusiya vətəndaşı olan Anna Filina adlı qadın təyyarə ilə tək səyahət edib. Filina Antalya Hava limanına çatanda qəribə bir şey görüb.**

Qadın onu məmləkəti Yekaterinburqa aparacaq çarter reysinə yazıldıqda başqa heç bir sərnişinin olmadığını anlayıb.

"Şərq" türk mediasına istinadən bildirir ki, gediş vaxtından 15 dəqiqə əvvəl vəziyyətdə hər hansı bir dəyişiklik görməyən Anna instaqram hesabında maraqlı paylaşım edib: "Havaya qalxmaq üçün 15 dəqiqə vaxt var, heç kim yoxdur. Görəsən, pilot xəbərdardırmı?".

*Stüardessa xanımlar da onu tək görəndə çox təəccübləniblər.*

**Yeganə**

# Sınaq uğurlu alındı

## Uçan avtomobil 35 dəqiqə havada oldu



**Bu həftə uçan avtomobil modeli AirCar-nın 35 dəqiqəlik problemsiz uçuşunu həyata keçirilib.**

"Şərq" xarici mətbuata istinadən xəbər veir ki, iki şəhər arasında problemsiz bir şəkildə uça bilən bu nəqliyyat vasitəsi təxminən 2500 metr hündürlüyədək qalxa bilib. Uçan avtomobil ideyasını reallaşdıran şirkət maşına Klein Vision AirCar adını verib. Həmçinin avtomobil saatda 170 kilometr sürətə çata bilir. Qeyd edək ki, sınaq uçuşu Slovakiyada həyata keçirilib. Slovakiyanın Nitra şəhərindəki hava limanından uçan maşın paytaxt Bratislavada beynəlxalq hava limanına eniş edib. Şirkət bildirib ki, yalnız iki nəfər nəqliyyat vasitəsinə minə bilər. Həmçinin, avtomobil 200 kiloqram yük daşımaq qabiliyyətinə malikdir. 2019-cu ildə bir konsaltinq şirkəti olan Morgan Stanley sözügedən sənayenin 2040-cı ilə qədər 1,5 trilyon dollar dəyərində olacağını təxmin edir.

**Aynurə**

# Ata ömrü boyu kasıb kimi davranıb

## Öləndə mirası ailəsini şoka saldı



**Misirdə qeyri-adi hadisə yaşanıb. Ömrü boyu maddi vəziyyətinin yaxşı olmadığını söyləyən kişinin mirası qohumlarını şoka saldı.**

"Şərq" "Sabah.com"a istinadən xəbər verir ki, 25 il bir Körfəz ölkəsində işləyən ata ailəsinə çox az pul verirdi və imkanının olmadığını söyləyirdi.

Məlumata görə, kişinin arvadı, oğlu və qızı illərlə maddi sıxıntı içində yaşayıb. Atalarının ölümündən bir ay sonra isə ailəyə bankdan məktub gəlib. Ailə banka borclu olduqlarını düşünüb. Ölən kişinin oğlu məsələni müzakirə etmək üçün banka gedəndə miras sürprizi ilə qarşılaşıb. Gənc oğlan atasının bankda təxminən 12 milyon türk lirəsi olduğunu öyrənəndə huşunu itirib.

**Yeganə**



# Sahil qan gölünə döndü

## *175 balinanın qanlar içində can verməsini sakitcə izlədilər*





**Farer adaları növbəti qətliama imza atdı. Balina ovçuları yaraladıqları 175 balinanın sahildə qanlar içində can verməsini sakitcə müşahidə etdilər.**

Dünya bu vəhşiliyi hər il görür, lakin heç kim, heç bir dövlət bu soyqırımın qarşısını almır. Farer adalarının ovçuları o qədər qəddarlaşıb və harınlayıblar ki, sahildəki qanlı mənzərəni səmadan qeydə almaq istəyən drona hətta atəş açıblar. Bununla belə görüntülərdə balıqçıların sahildə əllərində qarmaq, mizraq, bıçaq sahildə dayanıb gözlədiklərini göstərir. Balinaların qətliamını "Grind" adlandırırlar. Və bu vəhşilik tam 300 ildir davam edir. Adını da "Grindadrap" festivalı qoyublar. "Şərq" Türkiyə mediasına istinadən bildirir ki, bu vəhşi festivalın iştirakçıları balinaları yaralayır, sonrasa yaralı balinaları sahilə sürükləyirlər. Sahil başdan-başa qan gölünə çevrilir. Heyvan haqlarını müdafiə təşkilatları, ictimai birliklər bu qətliamı dayandırmağa çalışsalar da, nail ola bilmirlər. Bu il xeyli sayda insan qanlı festivaldan görüntüləri sosial mediada paylaşaraq balinaların qəddarcasına qətlinə etiraz edib. Farer adaları xalqı isə "festival" məsələsində fərqli mövqelərdədir.

*(Davamı səh: 15-də)*

**Məlahət**

# Korona faciəsi dəhşət saçır

## Qanq çayına atılmış cəsədlər yenə sahilə çıxır





**Hindistanda faciənin miqyası getdikcə böyüyür.**

Ölkədə koronaviusa yoluxanların sayı 30 milyonu ötüb, 400 min insanınsa vəfat etdiyi bildirilir. Üstəlik, bu rəqəmlərin aysberqin yalnız görünən tərəfi olması təxminləri də çox güclüdür. "Şərq" "Milliyet.com"a istinadən xəbər verir ki, hazırda bütün ölkə boyu yaşanan növbəti gərginlik Qanq çayına atılmış cəsədlərin yenə də sahilə çıxmasıdır. Ölkədə bunu "ölülərin xortlaması" adlandırırlar. Cəsədlərin sahilə çıxmasının səbəbi isə mövsümi musson yağışlarının başlamasıyla çaydakı daşqınlardır. Məhz musson daşqınları minlərlə cəsədi sahilə çıxarır, beləcə yüzlərlə Covid "zombi"si Qanq çayı boyunca "üzür". Ölkənin şimalında və şərqindəki ailələr ölüləri yandırmaq üçün odun satışında qiymətlərin yüksəlməsindən narazıdırlar. Odun qiymətləri hər gün artır. Odun almağa maddi imkanı çatmayanlar koronavirusdan vəfat etmiş doğmalarını, yaxınlarını Qanq sularına "təslim etmək" məcburiyyətində qalır, ya da sahildəki məzarlıqlara dəfn edirlər.

*(Davamı səh: 15-də)*

**Məlahət**




# Dinanın avtomobili 52 min funt sterlinqə satılıb

**Şahzadə Dianaya məxsus avtomobil hərracda 52 min funt sterlinqə satılıb.**

1981-ci ildə Şahzadə Dianaya nişan hədiyyəsi olaraq verilən "Ford Escort Ghia" nın alıcısının kim olduğu məlum deyil. Avtomobildə bacısı Leydi Sara Spenser tərəfindən şahzadəyə hədiyyə olaraq verilmiş gümüş qurbağa maskotu var.

*Qeyd edək ki, şahzadə avtomobili 1982-ci ilin avqust ayına qədər istifadə edib.*